

Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 137 (8160) CÜMƏ, 28 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri Zakir Həsənov burada aparılmış yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verdi.

Bildirildi ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey 11 hektar ərazini əhatə edir. Burada tikinti, təmir və yenidənqurma işləri 2018-ci ilin fevral ayında başlanıb. Hərbi Liseyin ərazisində qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib, eləcə də mövcud binalar əsaslı təmir olunub və qurğular yerləşdirilib. Hərbi Liseydə sahəsi 1800 kvadratmetr olan üçmərtəbəli yeni qərargah binası inşa olunub. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, abadlıq tədbirləri görülüb. Binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və ətrafında xatirə kompleksi yerləşir.

Liseyin ərazisində tibb məntəqəsi də inşa olunub. İkimərtəbəli 32 çarpayılıq tibb məntəqəsində funksional diaqnostika, həkim, oftalmoloji kabinetlər, laboratoriya, sarğı otağı, təxirəsalınmaz yardımın göstərilməsi üçün otaq, xidməti otaqlar, palatalar və müasir yeməkxana yaradılıb. Buradakı şərait şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi yardımın göstərilməsinə imkan verir.

Hərbi Liseydə yaradılan qapalı idman kompleksində kursantların idmanla məşğul olmaları üçün hərtərəfli imkanlar var. Kompleksdə trenajor, gimnastika zalları, mini-futbol, basketbol və voleybol oyunlarının keçirilməsi üçün meydança yaradılıb.

Sonra dövlət başçısı Hərbi Liseydəki Heydər Əliyev Muzeyi ilə tanış oldu. Hələ sovet dövründə gələcəkdə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılıb. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu hərbi təhsil ocağına ən yüksək səviyyədə diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyevin 1998-ci və 2002-ci illərdə imzaladığı sərəncamlarla Hərbi Liseyin yaradılmasının 25 və 30 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd edilib. Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda nizami ordu quruculuğu, Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması, o cümlədən Hərbi Liseyin inkişafına göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolar, sənədlər və nəşrlər nümayiş olunur.

Dövlət başçısı Hərbi Liseydə təhsil alan kursantların yaşayış və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan dördmərtəbəli yataqxana korpusu ilə də tanış oldu. Yeni tikilən binada konfrans zalı, ideoloji, məişət və digər otaqlar zəruri avadanlıqla təchiz edilib. Yataqxanada kursantların qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Liseydə üçmərtəbəli yataqxana korpusu da əsaslı təmir olunub.

Sonra Prezident İlham Əliyev Hərbi Liseyin klubunda yaradılan şəraitlə tanış oldu. Liseydə aparılan yenidənqurma və təmir işləri çərçivəsində klubun binası da əsaslı təmir edilib. Klubun 350 yerlik binasında mədəni-maarif tədbirlərinin keçirilməsi üçün bütün şərait var. Burada, eyni zamanda, ölkəmizin və liseyin həyatında baş verən əlamətdar hadisələri qeyd etmək mümkündür.

Daha sonra dövlət başçısı kursant yeməkxanasında yaradılan şəraitlə maraqlandı. İkimərtəbəli yeməkxana binası da əsaslı təmir olunub. Bütün avadanlıqla təchiz edilmiş binada eyni vaxtda 600 kursant nahar edə bilər. Burada yemək zalı, mətbəx və təsərrüfat otaqları, ərzaq və soyuducu anbarlar var. Dövlət başçısının qayğısı sayəsində bu gün Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların qidalanması məsələsinə də xüsusi diqqət yetirilir.

Hərbi Liseyin tədris korpusunda yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, dördmərtəbəli bina da əsaslı təmir edilib. Burada tədris prosesi Azərbaycan dili, ictimaiyyət, riyaziyyat, informatika, xarici dil və təbiət fənn bölmələri üzrə həyata keçirilir. Korpusda fənn kabinetlərində, kimya və fizika laboratoriyalarında kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıb.

Yenidənqurma işləri zamanı liseyin təntənəli mərasimlər, sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sahəsi üç min kvadratmetr olan sıra meydanı da salınıb və tribuna inşa edilib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına, istərsə də müasir silah-sursat arsenalına görə dünyada lider yerlərdən birini tutur. Bu, göstərir ki, Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla uğurla reallaşdırılır.

Ardı 2-ci səh.

## *Mehriban ƏLİYEVA:* “Bizim ordumuzun əsas gücü Azərbaycanın əsgər və zabitlərinin döyüş ruhu və vətənə hədsiz sevgisidir”



Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsində edilən paylaşımda deyilir:

*“Əziz həmvətənlər!*

*Əziz hərbi qulluqçular və veteranlar!*

*Bu gün biz Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd edirik. Bu, hərbi rəşadət, şərəf və igidlik bayramıdır. Bu gün biz həyatını riskə məruz qoyaraq vətənimizi müdafiə edənlərin qəhrəmanlığına ehtiramımızı bildiririk.*

*Silahlı Qüvvələr Günü əsl ümumxalq bayramıdır. Ordu bizim dövlətçiliyimizin, təhlükəsizliyin və sabitliyin dayağıdır. Dövlətin hərbi qüdrəti bir çox amillərlə şərtlənir. Lakin bizim ordumuzun əsas gücü Azərbaycanın əsgər və zabitlərinin döyüş ruhu və vətənə hədsiz sevgisidir.*

*Əziz hərbçilərimiz! Biz sizin mərdliyiniz, şücaətiniz və ən yüksək peşəkarlığınızla fəxr edirik. Bu əlamətdar bayram münasibətilə sizi ürəkdən təbrik edirəm”.*

## Sosial təminatın daha da yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılır

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inikşaf siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının davamlı olaraq imzaladığı fərman və sərəncamlar, qəbul edilən qərarlar ölkədə vətəndaşların sosial vəziyyətinin yaxşılaşmasına səbəb olur.

2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və həmin ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına Prezident İlham Əliyevin sərəncamları ilə geniş sosial paket elan edilib. Bu sosial paket 3 milyondan çox insanı əhatə edərək minimum əməkhaqqının, pensiya təminatlarının, təqaüdlərin, sosial müavinətlərin artmasına, problemli kreditlərin vətəndaşların xeyrinə həll olunmasına səbəb oldu. Sosial paket elan edilərkən Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf ediləcəyini bəyan etmişdi. 2019-cu ilin sürətli iqtisadi artım ili olacağı da əvvəlcədən planlaşdırılmışdı və ilin birinci rübünün iqtisadi yekunları bunu bir daha sübut etdi.

Ardı 3-cü səh.



## Azərbaycanın beynəlxalq təşkilatlarda yüksək nüfuzu var

### QDİƏT Parlament Məclisi Baş Assambleyasının 53-cü plenar sessiyasında ölkəmizlə bağlı həqiqətlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı

İyunun 20-21-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏT PM) Baş Assambleyasının 53-cü plenar sessiyası keçirildi. Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədr müavini, QDİƏT PM-də Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyevlə söhbətimiz bu barədədir.

### 53-cü sessiyaya beynəlxalq miqyasda maraq böyük idi

Əvvəlcə Azərbaycan-QDİƏT əlaqələrindən danışan Eldar Quliyev bildirdi ki, QDİƏT regional əməkdaşlığın əsas istiqamətlərini müəyyən etmək və Qara dəniz hövzəsi dövlətləri arasında əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə yaradılıb. QDİƏT-in təsisçi üzvlərindən biri kimi Azərbaycan onun regiondakı əhəmiyyətli rolunu yüksək qiymətləndirir və üzv dövlətlər arasında fəaliyyətə böyük töhfələr verir.

Ölkəmizin QDİƏT-in Parlament Məclisinin işində iştirakına gəldikdə Eldar Quliyev dedi: “Təşkilatın Parlament Məclisi Qara dəniz hövzəsi ölkələrinin ali qanunverici orqanları arasında dialoqu təmin edən nüfuzlu beynəlxalq strukturdur. Parlamentarilərin işindən ticarət-iqtisadi və investisiya mübadiləsinin dinamikası, sosial, elmi-texniki və humanitar sahələrdə əlaqələr çox asılıdır.

Ardı 6-cı səh.

## Dövlətin orduya, hərbçilərə qayğısı tükənməzdir

### Prezident İlham Əliyevin Silahlı Qüvvələr Günündə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gəlişi məktəbin salnaməsində mühüm hadisəyə çevrildi

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə respublikada çoxsaylı sənaye müəssisələri, yaşayış evləri, sosial obyektlər inşa edilib, kəmərlər çəkilib, yollar salınıb. Ulu öndər hətta Moskvada keçmiş SSRİ-nin rəhbərliyində ən aparıcı vəzifələrdən birini tutduğu zaman uzaqda olsa da, Azərbaycanda neçə-neçə layihənin gerçəkləşməsinə kömək edib, dəstək verib. Xalqımız indi də bunların bəhrəsini görür.

Ulu öndərin genişmiqyaslı fəaliyyətinin, həyata keçirdiyi nəhəng layihələrin fonunda bir məktəbin yaradılması ilk baxışda bəlkə də kiçik iş kimi görünə bilərdi. Lakin bu, çox vaxtında atılmış addım, böyük uzaqgörənliklə gerçəkləşdirilmiş əvəzsiz bir iş idi. Söhbət Cəmşid Naxçıvanski adına Hərbi Liseydən gedir.

Bu lisey 1971-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Böyük siyasətçi hər sahədə olan zəruri məsələləri bildiyi kimi, hərbi sahədə də belə bir məktəbin fəaliyyət göstərməsinin vacibliyini əvvəlcədən yəqin etmişdi. Təsadüfi deyil ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də yaranmış ənənəni uğurla davam etdirərək və günün tələbləri baxımından inkişaf etdirərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyi həmişə diqqət mərkəzində saxlayır. Keçən ilin fevral ayından liseydə başlanan geniş təmir və yenidənqurma işləri buna aydın misaldır.

Artıq başa çatmış təmir və yenidənqurma işləri nəticəsində 11 hektar ərazini əhatə edən lisey yeni bir görkəm alıb. Belə ki, burada qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib.

Ardı 6-cı səh.

## Güləşçilərimiz Minskdə də tarix yazırlar

### Azərbaycan 7 yarış günündən sonra II Avropa Oyunlarında 16 medal qazanıb

Belarusun paytaxtı Minskdə davam edən II Avropa Oyunlarının 7-ci günü arxada qaldı. Azərbaycan idmançıları qitənin yaxşılarından olduqlarını öz parlaq qələbələri ilə burada da sübuta yetirirlər. Güləşçilərimiz bu dəfə də xüsusilə fərqlənir, onlara bəslənən etimadı doğruldurlar. Pəhləvanlarımız son iki gündə 5 medal (2 qızıl, 1 gümüş, 2 bürünc) qazanıblar.



### Qələbədən sonra əsgər salamı

İyunun 26-27-də “Minsk-2019”da keçirilən güləş yarışlarında 4 idmançımız medallar uğrunda mübarizə aparıb.

57 kq çəki dərəcəsində yarışan Mahir Əmiraslanov finalda serbiyalı Stevan Miçiçlə üz-üzə gəlib. Təmsilçimiz həlledici mərhələyədək boqarıstanlı Georgi Vangelovu, şimali makedoniyalı Vladimir Yeqorovu, rusiyalı Zavur Uğuyevi mübarizədən kənarlaşdırmışdı.

Final mərhələsi başlayanda tribunada “Azərbaycan, Azərbaycan” sədaları səngimək bilmirdi. Hamı güləşçimizdən qızıl medal gözləyirdi.

Güləş başladı. Hər iki finalçı mübarizəyə fəal qoşuldu. Lakin rəqibindən daha güclü olan Mahir 9:1 hesabı ilə qalib gələrək II Avropa Oyunlarının qızıl medalını qazandı. İdmançımızın qələbədən sonra verdiyi əsgər salamı da diqqəti çəkdi.

Himnimizi səsləndirdin, Mahir. Halal olsun! Bu sevinci bizə yaşatdığına görə çox sağ ol!

Final görüşündən sonra Mahir Əmiraslanov dedi ki, qələbəni hərbçilərə həsr edir: “Bu yaxınlarda özüm də hərbçi olacağam. Qələbəmdə əməyi olan hər kəsə təşəkkürümü bildirirəm. Azərbaycana ilk qızıl medal qazandırdığım üçün çox sevinirəm. İstəyirəm ki, bayrağımız daim yüksəklikdə dalğalansın. Çalışacağam ki, bundan sonra da bayrağımızı ucaldım”.

74 kq çəki dərəcəsində yarışan Hacımurad Hacıyev təsəllliverici görüşlərdə iştirak edib. Onun “bürünc” yolunda ilk rəqibi yunanıstanlı Kirillos Binenpaum olub.

Ardı 7-ci səh.

# Bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır








*Əvvəli 1-ci səh.*

Dövlət başçısının rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Milli Ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır.

Prezident, Ali Baş Komandan İlham Əliyev 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarını və müəllimlərini təbrik edərək dedi:

- Silahlı Qüvvələr Günü münasibətilə Sizi təbrik edir, hər birinizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz gözəl hərbçi kimi özünüzü göstərəsiniz.




Bilirsiniz ki, bu məktəbin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə bu məktəb 1971-ci ildə yaradılmışdır. Ulu öndər həmişə bu məktəbin fəaliyyətinə böyük diqqət göstərmişdir. Hələ o vaxt bilirdi ki, bizə milli hərbçi kadrlar lazım olacaq və belə də oldu.




Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir.

Ulu öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir.






Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək.

Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək.

Azərbaycan bu gün bütün sahələrdə uğurla inkişaf edir. Əminəm ki, bu inkişaf dayanıqlı olacaq. Sizə - burada oxuyan kursantlara və çalışan müəllimlərə yeni uğurlar, cansağlığı arzulayıram. Vətənin qorunması işində siz həmişə fəal olmalısınız və öz gücünüzü göstərməlisiniz.

Sizi bir daha təbrik edirəm.

Bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

## Milli Məclisin növbədənkənar sessiyasının plenar iclasında

# Parlament qanun yaradıcılığı fəaliyyəti ilə Prezidentin islahatlar kursuna dəstək verir

İyunun 27-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirildi. İlk olaraq "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi üçüncü oxunuşda müzakirə edildi. Layihə ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi.





### 2018-ci il dövlət büdcəsinin icrası haqqında layihə üçüncü oxunuşdan keçdi

Qeyd edildi ki, layihə komitənin iclasında ətraflı müzakirə olunub. Xatırladaq ki, 2018-ci ildə ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafının prioritet istiqamətləri, o cümlədən, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və infrastruktur layihələrinin reallaşdırılması, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi, dövlətin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi, kənd təsərrüfatının stimullaşdırılması, dövlət borcu və beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi və digər zəruri dövlət tədbirlərinin icrası üçün maliyyə təminatının yaradılması diqqətdə saxlanılıb.

Təqdim olunmuş hesabata əsasən 2018-ci ildə dövlət büdcəsinin gəlirləri 22 milyard 149 milyon manat proqnoza qarşı 22 milyard 508,9 milyon manat və ya 101,6 faiz təşkil etmişdir. Bu da 2017-ci illə müqayisədə 36,3 faiz çoxdur. Ötən il dövlət büdcəsinin xərcləri 23 milyard 100 milyon manat proqnoza qarşı 22 milyard 731,6 milyon manat və ya 98,4 faiz icra edilib. Bu da 2017-ci ilə nisbətən 29,2 faiz çoxdur. Qanun layihəsi təsdiq olundu.

### Sosial islahatlardan irəli gələn dəyişikliklər

"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarıldı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə dedi ki, nəzərdə tutulan dəyişikliklərin əsas məqsədi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna (DSMF) dövlət büdcəsindən ayrılan transfertin 150 milyon manat azaldılaraq, həmin vəsaitin xüsusi müdafiə təyinatlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi, sosial paket çərçivəsində DSMF-in gəlirlərinin 350 milyon manat, xərclərinin isə 200 milyon manat artması nəticəsində qanunda müvafiq düzəlişlər edilərək, gəlirlərin xərclərdən artıq olan hissəsi (150 milyon manat) həcmində dövlət büdcəsindən transfertin azaldılması, DSMF-in xərclərinin 200 milyon manat, işsizlikdən sığorta fondunun xərclərinin isə 15 milyon manat artması səbəbindən icmal büdcə xərclərinin yuxarı həddinin cəmi 215 milyon manat artırılmasıdır. Qanun layihəsi birinci oxunuşda təsdiq olundu.

"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi haqqında (birinci oxunuş) parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli məlumat verdi. Qanun layihəsinə nəzərdə tutulan dəyişikliklər DSMF-ə dövlət büdcəsindən ayrılan transfertin 150 milyon manat azaldılması, DSMF-in xərclərinin 200 milyon manat, işsizlikdən sığorta fondunun xərclərinin isə 15 milyon manat artması səbəbindən icmal büdcə xərclərinin yuxarı həddinin 215 milyon manat artırılmasıdır. Qanun layihəsi birinci oxunuşda təsdiq olundu.

Müzakirələr zamanı deputatlardan Tahir Kərimli, Elmira Axundova, Fəzail Ağamalı, Əli Məsimli layihə ilə bağlı fikirlərini bildirdilər, təkliflərlə çıxış etdilər. Komitə sədri Hadi Rəcəbli qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi birinci oxunuşda təsdiq edildi.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim etdi. Qanun layihəsi hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Layihəyə əsasən hakimlərin maddi təminatı yaxşılaşdırılır və onlara məzuniyyətə çıxdığı vaxt məzuniyyət haqqı və iki aylıq əmək haqqı məbləğində müavinət verilməsi nəzərdə tutulur. Qısa müzakirədən sonra qanun layihəsi təsdiq olundu.

Deputatlar Vergi Məcəlləsində və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə də birinci oxunuşda müsbət münasibət bildirdilər.

Daha sonra iclasda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə layihə (birinci oxunuş) müzakirə edildi. Komitə sədri Hadi Rəcəbli dedi ki, dəyişikliklərə əsasən əmək pensiyalarının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat müəyyən olunur. Eyni zamanda, layihədə pensiya kapitalının ildə bir dəfə indeksləşdirilməsi öz əksini tapıb. Layihə ilə bağlı deputatlardan Musa Quliyev və Musa Qasımlı fikirlərini bildirdilər. Qanun layihəsi birinci oxunuşda təsdiq olundu.

"İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" layihə haqqında (birinci oxunuş) məlumat verən Hadi Rəcəbli dedi ki, nəzərdə tutulan dəyişikliklər özünüməşğulluq tədbirlərinin təşkilinin maliyyələşməsi üzrə xərclərin artırılması məqsədi daşıyır. Qanun layihəsi birinci oxunuşda təsdiq olundu.

"Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmaq haqqında Azərbaycan Respublikası Qanununun layihəsi barədə Milli Məclis Sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verdi. Bildirdi ki, Beynəlxalq Hərbi Tibb Komitəsinin yaranması zərurəti Birinci Dünya müharibəsindən sonra ortaya çıxıb. Yeni Nizamnamə 1921-ci ildə qurum təsis edilərkən təməlini təşkil edən və bugünədək Beynəlxalq Komitənin bütün fəaliyyətini tənzimləyən fundamental prinsiplərə əsaslanır. Qanun layihəsi təsdiq olundu.

İclasda "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi barədə Protokolun təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikası hökuməti ilə Koreya Respublikası hökuməti arasında qrant yardımına dair" Çərçivə Sazişinin təsdiq edilməsi haqqında qanun layihələri də təsdiq olundu.

### Bir sıra qanun layihələri ikinci və üçüncü oxunuşlarda təsdiq olundu

Daha sonra iclasda üçüncü oxunuşda "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi, "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi təsdiq olundu.

"Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi haqqında (üçüncü oxunuş) Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli məlumat verdi. Qanun layihəsi təsdiq olundu.

Ziyad Səmədzadənin məlumatından sonra isə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində" və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində" dəyişiklik edilməsi haqqında" qanun layihəsi (üçüncü oxunuş), Əli Hüseynlinin məlumatından sonra isə "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (üçüncü oxunuş) təsdiq olundu.

Deputatlar "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi barədə", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihələrinə də üçüncü oxunuşda müsbət münasibət bildirdilər.

İkinci oxunuşda isə İnzibati Xətalar Məcəlləsində, "Məhkəmələr və hakimlər haqqında" qanunda, Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, Mülki Məcəllədə, Cinayət Məcəlləsində, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "Bələdiyyələrin statusu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri təsdiq olundu.

### ƏDV-dən azadolma kənd təsərrüfatı avadanlıqlarının istehsalına da tətbiq ediləcək

Parlamentin komitə sədri Əli Hüseynli Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə (birinci oxunuş) məlumat verdi. Qeyd etdi ki, layihəyə əsasən Məcəlləyə 146.4-cü maddənin əlavə edilməsi təklif olunur. Bu maddəyə əsasən Dövlət Mənzil Fondunun bu məcəllənin 146.1-ci maddəsinə aid edilməyən yaşayış sahələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda özəlləşdirilməsinə yol verilir. Qanun layihəsi təsdiq olundu.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) isə "Bakı Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 aprel tarixli fərmanının icrasının təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Layihədə yol hərəkətinin səmərəli şəkildə təşkil edilməsi və yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin daha etibarlı şəkildə təmin edilməsi üçün mühüm müddəalar nəzərdə tutulmuşdur. Qanun layihəsi təsdiq olundu.

Milli Məclisin komitə sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə (birinci oxunuş) məlumat verdi. Bildirdi ki, Vergi Məcəlləsinin 164-cü maddəsi kənd təsərrüfatı sahəsində bir sıra malların, məhsulların ƏDV-dən azad edilməsini nəzərdə tutur. Eləcə də məcəllədə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı ƏDV-dən azad edilmişdir. Bu qanun layihəsinə əsasən isə ƏDV-dən azadolma qeyd olunan qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı ilə yanaşı, onların istehsalına da tətbiq ediləcək. Bütün bunlar son nəticədə aqrar sektorun dəstəklənməsinə xidmət edəcək. Qanun layihəsi təsdiq olundu.

"Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) də qısa müzakirədən sonra təsdiq olundu. Qanunun qəbulu nəticəsində bank olmayan kredit təşkilatlarındakı inzibatçıların daha ixtisaslı kadrlarla əvəz olunması, sistemin sağlamlaşdırılması, istehlakçıların hüquqlarının qorunması üçün hüquqi əsas formalaşacaq. Qanun layihəsi təsdiq olundu.

### Bəzi dəyişikliklər qanunlara uyğunlaşdırma məqsədi daşıyır

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Milli Məclisə bir zərfdə təqdim olunmuş "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında", "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (birinci oxunuş) və "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (birinci oxunuş) layihələr haqqında məlumat verdi. Qeyd olundu ki, qanun layihələri "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli qanununa uyğunlaşdırma məqsədi daşıyır. Qanun layihələri təsdiq olundu.

Bir zərfdə təqdim olunan "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" (birinci oxunuş), "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" (birinci oxunuş) və "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihələri də təsdiq olundu. Dəyişikliklər "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli qanununa uyğunlaşdırmaq məqsədi daşıyır. Qanun layihələri təsdiq olundu.

Müzakirə olunan qanun layihələrindən biri də "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihəsi oldu. Təklif olunan dəyişikliklər publik hüquqi şəxslərin yaradılması, fəaliyyət göstərməsi və təşkili qaydalarını təkmilləşdirmək məqsədi daşıyır. Qanun layihəsi təsdiq olundu.

"Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsini (birinci oxunuş) diqqətə çatdıran Milli Məclis Sədrinin müavini, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov dəyişikliklərin məqsədi barədə məlumat verdi. Qanun layihəsinin məqsədi təbii su mənbələrindən götürülən suya görə güzəşt və azadolma hallarını müəyyən etmək, o cümlədən su obyektlərindən yanğından mühafizə ehtiyacları üçün istifadənin təkmilləşdirilməsidir. Qanun layihəsi təsdiq edildi.

Deputatlar "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihəsinə də müsbət münasibət bildirdilər. Qanun layihəsi avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının keyfiyyətinin yüksəldilməsi, bu sahədə fəaliyyəti həyata keçirən operatorun, onun məsul şəxsinin məsuliyyətinin artırılması məqsədi ilə hazırlanmışdır.

### Lombard fəaliyyəti qanunla tənzimlənəcək

İclasda "Lombardlar haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi də (birinci oxunuş) müzakirə edildi. Layihə ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə ətraflı məlumat verdi. Qanunun qəbulunda məqsəd lombardlar tərəfindən kreditlərin verilməsi və əşyaların saxlamaya qəbul edilməsi, habelə lombardlar tərəfindən həyata keçirilən fəaliyyətin nizamlanması və ona nəzarətlə bağlı münasibətləri tənzimləməkdir. Qeyd olundu ki, qanun layihəsi Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunmuşdur. Qanun layihəsi 6 fəsil, 32 maddədən ibarətdir.

Qısa müzakirədən sonra qanun layihəsi birinci oxunuşda təsdiq olundu.

İclasda son olaraq "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirə edildi. Bildirildi ki, qanun layihəsi "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin 3 aprel 2019-cu il tarixli fərmanının icrası məqsədilə hazırlanıb. Həmin fərmana əsasən Ədliyyə Nazirliyinə birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi barədə təkliflər hazırlamaq tapşırılmışdır. Kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi bu məqsədlə ayrılmış vəsaitlərin daha məqsədli və təyinatlı xərclənməsinə xidmət edəcək. Qanun layihəsi təsdiq olundu.

**Rəşad CƏFƏRLİ,**
**Fərman BAĞIROV (foto),**
**"Azərbaycan"**

# Sosial təminatın daha da yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılır

*Əvvəli 1-ci səh.*

İstər xarici ölkə səfərlərində, istərsə də Bakıda keçirilən beynəlxalq tədbirlərdəki çıxışlarında, habelə regionlara səfərləri zamanı ictimaiyyət nümayəndələri ilə görüşlərində "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" söyləyən Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan qlobal layihələr dövlətin gəlirlərinin artmasına, iqtisadiyyatın daha da inkişafına müsbət təsir göstərir. Bütün bu tədbirlər isə son nəticədə Azərbaycan vətəndaşının rifah halının daha da yaxşılaşdırılmasına yönəldilir. Minimum aylıq əməkhaqqının, dövlət ümumi təhsil müəssisələri və peşə təhsili müəssisələrində işləyənlərin, həmçinin dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılmasına dair Prezident İlham Əliyevin imzaladığı sərəncamlar eyni məqsəd daşıyır. Bu səbəbdən dövlət başçısının siyasi kursu Azərbaycan vətəndaşları tərəfindən dəstəklənir və yüksək dəyərləndirilir. Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli sərəncamı əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində cari ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır. Dövlət başçısının hələ cari ilin fevralın 8-də imzaladığı sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmış, bu artım 600 minədək insanı əhatə etmişdi. Son sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılır. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) 40 faizədək üstələyir. Minimum əməkhaqqının artımı isə 950 minədək vətəndaşı əhatə edir. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir. Bununla da artımdan sonra Azərbaycanda minimum əməkhaqqı MDB ölkələri arasında alıcılıq qabiliyyətinə görə (PPP) 2-ci yerdə qərarlaşacaq.

"Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" sərəncamla 160 minə yaxın müəllimin aylıq vəzifə maaşının 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılması nəzərdə tutulub. Bu da onların orta aylıq əməkhaqqının 605 manata çatmasına imkan verir. Artımın təmin edilməsi üçün dövlət büdcəsindən əlavə olaraq illik 240 milyon manat, bu il (sentyabr-dekabr ayları) üzrə isə 73 milyon manat vəsait ayrılacaq. Prezident İlham Əliyevin "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında" sərəncamı da həmin təbəqədən olan müəllimlərin və işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılmasına imkan yaradacaq.

Elm adamlarımıza, xüsusilə Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif sahələrində çalışanlara da yüksək etimad, böyük qayğı göstərilib. Prezident İlham Əliyevin AMEA Rəyasət Heyəti və aparatında, Gəncə bölməsinin aparatında çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılması barədə sərəncamı AMEA-nın Rəyasət Heyətində təmsil olunan və ona bağlı idarəetmə qurumlarında çalışan əməkdaşlara şamil edilir. AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimlinin sözlərinə görə, sərəncama əsasən AMEA Rəyasət Heyəti Aparatı əməkdaşlarının əməkhaqqının 40 faiz həcmində qaldırılması Azərbaycanın sosial siyasətində inqilabi hadisədir: "Bu sərəncam AMEA-nın Rəyasət Heyətində və ona bağlı idarəetmə qurumlarında təmsil olunan 300 nəfərdən artıq şəxsə aiddir. Bu, Prezidentin ziyalılara, AMEA-ya göstərdiyi yüksək etimadı nümayiş etdirir. Prezident tərəfindən atılan bu addım Azərbaycan elminin məsuliyyətini daha da artıracaq, onu yeni hədəflərə doğru inkişaf etdirəcək. Bu sərəncam AMEA-nın inkişafında həlledici əhəmiyyət kəsb edəcək".

Xatırladaq ki, Prezident İlham Əliyev çıxışlarında dəfələrlə 2019-cu ilin əhalinin sosial müdafiəsinin güclənməsi ili olacağını bildirib. Dövlət başçısının cari ilin əvvəlindən verdiyi qərarlar əhalinin rifahının daha da yaxşılaşmasını təmin edən reallıqlardır. İyunun 18-də imzalanan sərəncamlarla dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqları nəzərəçarpacaq dərəcədə artırılıb. Bu sərəncamlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığına, dövlətin hər bir vətəndaşının yanında olduğuna bariz nümunədir. Göründüyü kimi, imzalanan sərəncamlar Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəldilib. Artıq ölkəmiz güclü iqtisadi imkanlara malikdir. Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır. Ölkəmizin təşəbbüsü ilə Cənubi Qafqazda irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə hər bir Azərbaycan vətəndaşının rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Artıq bu cür sosial təyinatlı qərarlar davamlı xarakter alıb. Ölkə rəhbərinin çıxışlarında vurğulanıb ki, ilin sonunadək belə qərarların verilməsi mümkündür. Bununla da vətəndaşlarımızın güzəranı bundan sonra da yaxşılaşacaq.

**Rəhman SALMANLI,**
**"Azərbaycan"**

## Xocəsən-Lökbatan avtomobil yolunun 0-11-ci kilometrlik hissəsinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altmış dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Xocəsən-Lökbatan avtomobil yolunun 0-11-ci kilometrlik hissəsinin yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,5 milyon (on üç milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## 2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilməsi ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin həyata keçirəcəyi bir sıra tədbirlərin maddi təminatı haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Nəsimi ili" çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin həyata keçirəcəyi tədbirlərin maddi təminatı üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## Ə.N.Nağıyevə general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağı oğlu Nağıyevə general-leytenant ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## V.S.Eyvazova general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Süleyman oğlu Eyvazova general-polkovnik ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## Türkiyədə Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illiyinə həsr olunan xatirə pulu buraxılıb









Türkiyə zərbxanası ölkəmizin Ankaradakı səfirliyinin təşəbbüsü ilə Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının yüz illiyinə həsr olunan bürünc xatirə pulu buraxıb.

Səfirlikdən AZƏRTAC-a verilən məlumata görə, xatirə pulunun ön üzündə Azərbaycanın gerbi, ölkəmizin xəritəsinə həkk olunmuş dövlət bayrağımız və "Republic of Azerbaijan - 100 - Diplomatic Service 1919-2019" yazısı, arxa üzündə isə "Türkiye Cumhuriyeti 2,5 Lira" yazısı yer alıb.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsəlman dünyasında ilk demokratik respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyamızın rolunu nəzərə alaraq və 1919-cu il iyul ayının 9-da Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyi tarixi əsas tutaraq 24 avqust 2007-ci il tarixində 9 iyul tarixinin Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb. Həmin tarixdən etibarən hər il iyulun 9-u Azərbaycan Respublikası diplomatlarının peşə bayramı kimi qeyd olunur.

# "Azərbaycanın davamlı inklüziv inkişafında könüllülər fəaliyyətinin rolu" istiqaməti üzrə ixtisasartırma kursuna başlanılıb



İyunun 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Azərbaycanın davamlı inklüziv inkişafında könüllülər fəaliyyətinin rolu" istiqaməti üzrə ixtisasartırma kursuna başlanılıb.

AZƏRTAC xəbər verir ki, ikigünlük kursda Azərbaycanın 25 şəhər və rayonundan dinləyicilər iştirak edirlər.

Kursun ilk məruzəçisi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov ölkəmizdə könüllülük hərəkatının mahiyyətindən, tarixindən, onun cəmiyyətdə xüsusiyyətlərindən danışıb, eləcə də könüllülər və Azərbaycanın gənclər siyasəti haqqında dinləyicilərə ətraflı məlumat verib. Vurğulayıb ki, Azərbaycanda könüllülük hərəkatının tarixi hələ Xürrəmilər dövründən başlayıb. Babək Azərbaycanı yadelli işğalçılardan qorumaq üçün xalqa müraciət edib və ətrafına toplaşan könüllülərlə torpaqlarımızın işğalına qarşı mübarizə aparıb. Müasir Azərbaycanda isə könüllülük sahəsində inkişaf məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Onun 1994-cü ildə dövlət çevrilişinə cəhd zamanı xalqa müraciət etməsi müasir dövrümüzdə könüllülük hərəkatının nadir nümunəsidir. O zaman xalqa müraciət edildikdən 1-2 saat sonra Prezident Administrasiyasının qarşısına 100 minlərlə insan toplaşmışdı. Könüllülük Azərbaycan xalqının xüsusiyyətindən, qəlbindən irəli gəlir.

Professor Əli Həsənov həmçinin Heydər Əliyev Fondunun həyata keçirdiyi humanitar təşəbbüslərə də toxunub və bu layihələrin təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də reallaşdırıldığını bildirib.

Sonra Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov dinləyicilər qarşısında "Dövlət idarəçiliyində yeni texnologiyalar: Azərbaycan Respublikasının innovativ təcrübəsi beynəlxalq təşkilatların sənədlərində" adlı məruzə ilə çıxış edib, könüllülük hərəkatının Azərbaycanda rolundan danışıb. Qeyd olunub ki, könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi xeyrə əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqaməti hesab olunur.

Daha sonra Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və elmi araşdırmalar departamentinin direktoru Məhəbbət Mehdiyevanın "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin baş məsləhətçisi İrfan Davudovun "Azərbaycanda gənclər siyasətinin əsas istiqamətləri" mövzularında məruzələri dinlənilib.

Kurs iyunun 28-də başa çatacaq.

# Bakıda UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Abidə Menecerləri Forumu öz işinə başlayıb





İyunun 27-də Bakı Konqres Mərkəzində UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Abidə Menecerləri Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, iyulun 4-dək davam edəcək forum Azərbaycanın Mədəniyyət Nazirliyi, UNESCO-nun Dünya İrsi Mərkəzi, Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəz (ICCROM), "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası Üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə təşkil edilib.

Forumu Dünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı yaradılmış Təşkilat Komitəsinin sədri, Mədəniyyət naziri Əbülfəs Qarayev açaraq bildirib ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirməsi müstəqil dövlətimizin nüfuzundan xəbər verir.

Nazir Azərbaycan-UNESCO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb. Bildirib ki, Dünya İrs Komitəsinin 42-ci sessiyasında Azərbaycan bir il müddətinə komitənin sədri seçilib. Ölkəmiz üçün böyük əhəmiyyətə malik belə bir qərarın qəbul edilməsi UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasının göstəricisidir.

Qeyd edib ki, Dünya İrs Konvensiyasına uyğun olaraq Dünya İrsi Siyahısına 276 milyon hektardan çox ərazini əhatə edən mindən çox abidə daxildir. Dünya İrsi Mülkiyyətinin daha səmərəli qorunmasına nail olmaq üçün Dünya İrsi Abidə Menecerləri Forumu böyük önəm daşıyır. Bu forum yeni təşəbbüs kimi 2017-ci ildə Polşanın Krakov şəhərində başlayıb və artıq üçüncü dəfədir keçirilir. Səkkiz gün ərzində davam edəcək forumda 50-dən çox ölkəni təmsil edən 70-ə yaxın şəxs iştirakı edir. Abidə menecerləri bu tədbir günləri ərzində bir sıra iclaslarda və yığıncaqlarda iştirak edəcəklər.

Azərbaycandakı bir neçə məkanın UNESCO-nun Dünya İrsi Siyahısına namizəd kimi irəli sürülməsinin nəzərdə tutulduğunu söyləyən nazir deyib ki, hazırda Şəkinin Xan Sarayı və şəhərin qədim hissəsinin bu siyahıya salınması üzərində iş gedir: "Bakıda bu məsələ müzakirə olunacaq və ümid edirik ki, nəticə müsbət olacaq. Bir neçə variant var və onların bəzilərində nöqsanlar mövcuddur. Onları aradan qaldırdıqdan sonra yenidən məsələyə baxılacaq. Çalışacağıq ki, məsələ həll olunsun".

Nazir bildirib ki, Hirkan milli parkının meşələri üçün İranın nominasiyası nəzərdə tutulur: "Həmin meşənin Azərbaycana düşən hissəsini vahid məkan kimi təqdim etmək istəyirik. Bu, gələcəyin məsələsidir. Naxçıvandakı türbələrin də siyahıya salınmasını nəzərdə tuturuq. Hazırda bu məkanlar normal vəziyyətdə olduğundan elmi cəhətdən əsaslandırılması prosesi getməlidir".

Əbülfəs Qarayev Abidə Menecerləri Forumunda dünyada mədəni irsin qorunması üçün əhəmiyyətli müzakirələrin aparılacağına ümidvar olduğunu vurğulayaraq tədbirin işinə uğurlar arzulayıb.

Tədbirdə Ümumdünya İrs Mərkəzinin direktoru Mextild Rossler, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun rəisi Əsgər Ələkbərov və başqaları çıxış edərək irsin qlobal anlamından bəhs edib, eləcə də Abidə Menecerləri Forumunun yeni biliklərin əldə edilməsi, əlaqələrin qurulması və təcrübənin qazanılması nöqteyi-nəzərdən önəmindən danışıblar.

Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) baş direktoru Uebber Ndoro forum iştirakçılarına videomüraciət edib və onlara uğurlar arzulayıb.

Qeyd edək ki, forumun gündəliyinə Abidə Menecerləri Forumunun Dünya İrsi çərçivəsində və Potensial Yaradılması sahəsində məqsəd və obyektləri, Dünya İrsi və Dayanıqlı İnkişaf - 2015-ci il idarəetmə sənədi ilə tanışlıq, Mədəniyyət mənzərələri və Dünya İrsinin xüsusiyyətləri nəzdindəki konservativ tətbiqlərə dair əsas təqdimat və digər mövzular daxildir.

Bundan əlavə, forum iştirakçıları "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu, "Qobustan" Dövlət Tarixi-Bədii Qoruğunu və digər yerləri gəzəcəklər.

İyulun 2-də iştirakçılar Dünya İrs Komitəsinin 43-cü sessiyasında xüsusi bəyanat ilə çıxış edəcəklər.

# Şəkidə keçirilən konfransda terrorçuluqla mübarizə sahəsində görülən işlərdən ətraflı bəhs olunub

Terrorizm müasir dövrdə ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif formalarda təzahür edən, daha hədələyici miqyas alan ciddi təhdidlərdən biridir. Terror aktları insan tələfatı ilə nəticələnir, böyük insan kütlələrinə güclü psixoloji təzyiq göstərir, maddi və mənəvi dəyərləri məhv edir, dövlətlər arasında nifaq salır, müharibələrə, sosial və milli qruplar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur. Terrorçuluqla mübarizədə xüsusi xidmət və hüquq mühafizə orqanları ilə yanaşı, ictimaiyyətin də yaxından iştirakı və rolu danılmazdır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Dövlət Təhlükəsizliyi Xidmətinin Beynəlxalq Antiterror Təlim Mərkəzinin (DTX BATM) təşkilatçılığı ilə iyunun 27-də Şəki şəhərində keçirilən "Xarici xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi pozuculuq fəaliyyəti" və "Terrorçuluqla mübarizədə gələcək nəslin maarifləndirilməsi" mövzularında elmi-praktik konfransda səsləndirilib.

Heydər Əliyev Mərkəzində təşkil olunmuş tədbirdə Şəki şəhər rəhbərliyi və ictimaiyyətin nümayəndələri, həmçinin gənclər və qeyri-hökumət təşkilatlarının, elm, təhsil və mədəniyyət müəssisələrinin təmsilçiləri iştirak ediblər.

Əvvəlcə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin Mərkəzin qarşısındakı abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının da xatirəsi ehtiramla yad olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

DTX BATM-ın rəisi Rəşad Camalov tədbiri açaraq konfransın məqsədi barədə ətraflı məlumat verib. Terrorçuluğun doğurduğu təhlükələrə qarşı mübarizədə cəmiyyətin bütün üzvlərinin yaxından iştirakının vacibliyini vurğulayan mərkəz rəisi regionlarda davamlı olaraq keçirilən belə konfransların əsas məqsədinin təhlükəsizlik fəaliyyətinin təmin olunmasının müxtəlif sahələri ilə bağlı vətəndaşların, xüsusilə gənc nəslin maarifləndirilməsi və bu işdə onların rolunun artırılmasından ibarət olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, dövlətin təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən bu məsələlər Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu gün Azərbaycanın təhlükəsizlik orqanları dövlətçilik maraqlarının və təhlükəsizliyin etibarlı qorunmasında mühüm rol oynayır. İndi müstəqil Azərbaycan dünyada ən sabit, sürətlə inkişaf edən və təhlükəsizlik mühitinə malik ölkələrdən birinə çevrilib.

Konfransda DTX-nin əməkdaşı Tural Məmmədov "Xarici xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi pozuculuq fəaliyyəti" mövzusunda geniş məruzə edib. Məruzəçi slaydlardan istifadə etməklə müasir dövrdə təhlükəsizliyi ciddi təhdid edən terrorizmə və radikalizmə qarşı mübarizə sahəsində DTX tərəfindən həyata keçirilən tədbirlər, həmçinin terrorizmin beynəlxalq coğrafiyası, beynəlxalq terrorçuluqla və dini ekstremizmlə mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Bildirilib ki, son dövrlər bəzi ölkələrdə cərəyan edən proseslər, xüsusilə münaqişə ocaqlarındakı mürəkkəb vəziyyət, mütəşəkkil cinayətkarlığın doğurduğu təhdidlər, müxtəlif radikal meyillərlə üzləşmək və sair təhlükələr hərtərəfli sayıq olmağımızı tələb edir. Gənclər dövlətin, xalqın gələcəyinin, ölkənin sabit və dinamik inkişafının onların vətənpərvərliyindən, dövlətçiliyə və müstəqilliyə sədaqətindən asılı olduğunu bir an belə unutmamalıdırlar.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası terrordan ciddi zərər çəkmiş ölkələrdən biridir. Regionun təhlükəsizliyinə və inkişafına əsas təhdid mənbəyi Ermənistan və onun yürütdüyü təcavüzkarlıq, qəsbkarlıq siyasətidir. Ermənistan tərəfindən ölkəmizə qarşı 373, o cümlədən nəqliyyat və kommunikasiya obyektlərində 32 terror aktı törədilib, 2 mindən artıq mülki şəxs ölüb və əlil olub.

Sonra məruzəçi xarici xüsusi xidmət orqanlarının informasiya toplama üsulları, onların sosial şəbəkələr vasitəsilə kəşfiyyat fəaliyyəti, dezinformasiya, separatçılıq anlayışı, erməni terrorunun acı nəticələri, terrorçuluqla mübarizə üzrə ictimai təmasların əhəmiyyəti, DTX tərəfindən respublikanın hüquq mühafizə və digər aidiyyəti dövlət orqanları ilə birgə həyata keçirilən əməliyyat tədbirlərinin konkret nəticələri barədə geniş məlumat verib.

Konfransda DTX-nin əməkdaşı Azər Əfəndiyev "Terrorçuluqla mübarizədə gələcək nəslin maarifləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, terrorçuluq, həmçinin onun nəticələri müasir dünyanın qarşılaşdığı ciddi və daha təhlükəli problemlərdəndir.

Diqqətə çatdırılıb ki, son illər dövlətimiz tərəfindən ölkədə yeniyetmə və gənclər arasında hərbi-vətənpərvərlik hissinin, milli-mənəvi dəyərlərə bağlılığın daha da gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Lakin bu məsələdə hər bir vətəndaş ayıq-sayıq olmalı, görülən işlərə fəal töhfə verməlidir. Çünki düzgün və sistemli təbliğat işinin aparılmaması cəmiyyətdə ayrı-seçkiliyə və gənclərin yanlış istiqamətdə formalaşmasına gətirib çıxara bilər.

Qeyd olunub ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva gənclərin vətənpərvərlik ruhunda yetişmələri, onların Vətənə və dövlətə sədaqət ruhunda tərbiyə olunmaları istiqamətində çoxsaylı proqram və layihələrin həyata keçirilməsinə daim xüsusi diqqət göstərirlər.

Çıxışlardan sonra Azərbaycanın təhlükəsizlik orqanlarının keçdiyi çətin və şərəfli inkişaf yolundan bəhs edən film nümayiş etdirilib. Filmdə istər sovet dönəmində, istərsə də müstəqillik illərində Azərbaycan təhlükəsizlik orqanlarının ölkəmizin milli maraqlarına xidmət edən qurum kimi formalaşmasında, struktur bölmələrinin təkmilləşdirilməsində, kadr potensialının azərbaycanlılaşdırılması və gücləndirilməsində ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu və misilsiz xidmətləri xüsusi qeyd olunub.

Diqqətə çatdırılıb ki, bu gün Prezident İlham Əliyev ulu öndərin siyasi kursunu yeni tələblərə uyğun olaraq uğurla davam etdirir. Dövlət başçısının göstərişi ilə ölkənin milli təhlükəsizlik konsepsiyası qəbul edilib. Konsepsiya dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təzyiqlərdən qorumaq məqsədilə hazırlanıb və təhlükəsizlik sisteminin XXI əsrin tələblərinə uyğun səviyyədə inkişaf etdirilməsini nəzərdə tutur. Bu istiqamətdə lazımi hüquqi baza yaradılıb, texniki təchizat və kadr hazırlığı işi yeni tələblərə uyğun qurulub. Bu gün təhlükəsizlik sistemində dövrün tələblərinə uyğun islahatların aparılması ölkə rəhbərliyinin xüsusi nəzarətindədir.

Sonda Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov əhalinin, xüsusilə gənclərin maarifləndirilməsi baxımından belə tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib, konfransın təşkilatçılarına minnətdarlığını bildirib.

# Elmar Məmmədyarov Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin baş direktoru ilə görüşüb



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin baş direktoru Mixael Şpindeleqqer ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə "Azərbaycanla Avropa İttifaqı arasında Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" (MOBILAZE) layihəsi çərçivəsində Bakıda keçirilən "Yerdəyişmə üzrə Tərəfdaşlıq" mövzusunda illik beynəlxalq konfrans zamanı faydalı müzakirələrin aparıldığı qeyd edilib. Miqrasiya məsələsinin hazırda beynəlxalq gündəlikdə, o cümlədən Aİ üçün önəm kəsb edən ən vacib məsələlərdən biri olduğu ifadə edilib.

Tərəflər Azərbaycanın Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz ilə miqrasiya sahəsində sıx əməkdaşlıq etdiyini bildirərək, MOBILAZE layihəsinin Aİ-Azərbaycan arasında əməkdaşlığın mühüm ölçüsü olan yerdəyişmə proseslərini və insanlararası əlaqələri dəstəkləməkdə rolunu yüksək qiymətləndiriblər. Eyni zamanda, tərəflər Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Viza Rejiminin Sadələşdirilməsi və Readmissiya sazişlərinin bu ölçüyə xidmət etdiyini söyləyərək sözügedən sazişlərin icrasında Azərbaycanın sadiqliyini xüsusilə vurğulayıblar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir Elmar Məmmədyarov münaqişə nəticəsində ölkəmizin genişmiqyaslı daxili miqrasiya problemi ilə üzləşdiyini bildirib. Nazir Azərbaycanın müvafiq qurumlarının səyi nəticəsində qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı işlər görüldüyünü xüsusilə qeyd edib. Elmar Məmmədyarov, eyni zamanda, həmsöhbətini münaqişənin həlli üzrə aparılan danışıqlar prosesinin son durumu ilə bağlı məlumatlandırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Təhsil nazirinin müavini Qaxda vətəndaşları qəbul edib

İyunun 27-də Təhsil nazirinin müavini Firudin Qurbanov Qax şəhərində vətəndaşları qəbul edib.

Nazir müavini rayonun Əlibəyli və Tasmalı kəndlərində yeni məktəb binalarının tikinti işləri ilə tanış olub. Bildirilib ki, rayonun Tasmalı kəndində 264, Əlibəyli kəndində isə 216 şagird yerlik yeni tədris binaları inşa olunur. Hər iki məktəb binasının 2019-2020-ci tədris ilində istifadəyə verilməsi nəzərdə tutulub.

Firudin Qurbanov təlim gürcü dilində olan Əlibəyli kənd tam orta məktəbinin müəllimləri ilə görüşüb. Görüşdə nazir müavini ölkə Prezidentinin rəhbərliyi ilə təhsil sahəsində aparılan islahatlar, əldə olunan nailiyyətlər barədə məlumat verib.

Uşaq-Gənclər Şahmat İdman Məktəbindəki şəraitlə tanış olan nazir müavini məktəbdənkənar müəssisənin nəzdində fəaliyyət göstərən qruplara cəlb olunan şagirdlər və onların müəllimləri ilə görüşüb, tövsiyələrini verib.

Daha sonra Firudin Qurbanov Qax şəhərindəki Heydər Əliyev Mərkəzində Qax, Zaqatala və Balakən rayon sakinlərini qəbul edib. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir müavini vətəndaşların müraciət və təkliflərini dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması və digər bu kimi məsələlərlə bağlı müraciət ediblər.

# Prezidentin islahat paketində elmimizə xüsusi diqqət yetirilib

Qloballaşan dünyada elmi intellektual potensial davamlı və sabit inkişafın əsas meyarına çevrilərək hər bir dövlətə qarşıya qoyduğu strateji məqsədləri inamla həyata keçirmək, dünya arenasında layiqli yer tutmaq imkanı yaradır. İqtisadi inkişaf strategiyasını elmi əsaslar üzərində quran, dövlət quruculuğu prosesində innovativ yeniliklərə istinad edən ölkələr milli tərəqqiyə nail olur, iqtisadi, sosial inkişaf müstəvisində rəqabətə davam gətirirlər. Reallıq göstərir ki, iqtisadi modernləşmə və demokratikləşməni təmin edən mühüm faktorlardan biri də məhz elmin səviyyəsinin durmadan yüksəldilməsi yolu ilə insan kapitalının formalaşdırılmasıdır.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, biz uzunmüddətli inkişaf strategiyamızı müəyyən edərkən mütləq güclü elmi bazaya arxalanmalıyıq: "Biz iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərkən güclü elmi əsaslara söykənməliyik. Burada düzgün proqnozlar verilməlidir. Biz... uzaq gələcəyə baxmalıyıq - 20 ildən, 30 ildən sonra Azərbaycan hansı imkanlar hesabına inkişaf edəcəkdir?! Azərbaycanda elə güclü potensial yaradılmalıdır ki, ölkəmizin inkişafı uzunmüddətli, uğurlu və dayanıqlı olsun".

Bu gün ölkəmizdə aparıcı alimlər nəslinin çoxalması və gənc nəslin elmə axınının gücləndirilməsi üçün kadr potensialının artırılmasına xüsusi diqqət yetirilir. Bütün bunlar Azərbaycan elminin dünya elm məkanına inteqrasiyasının təmin olunmasını sürətləndirmək məqsədi daşıyır. İyunun 11-də ölkə Prezidenti İlham Əliyev bütün elm ictimaiyyətinin səbirsizliklə gözlədiyi elmi adların verilməsi qaydası haqqında və elmi dərəcələrin verilməsi qaydası haqqında əsasnamələrin təsdiqi barədə fərman imzaladı. Bu fərman alqışlanmalıdır. Çünki həmin sənədlər Azərbaycan vətəndaşlarına elmi dərəcə və elmi ad verilməsində bugünkü reallığı əks etdirir və elmin inkişafına stimul yaradır və respublika elminin dünyada daha da tanınmasına geniş imkan açır.

Yeni əsasnamədə diqqəti cəlb edən və problemlərin həlli ilə bağlı mühüm məqamlar var. Əvvəla, elmi adların verilməsi qaydası haqqında əsasnamədə çox haqlı olaraq yalnız ixtisas üzrə dosent və ya professor elmi adının verilməsi nəzərdə tutulur. Əvvəllər isə həm ixtisas üzrə, həm də kafedra üzrə elmi adlar verilirdi və bu da bir çox hallarda narazılığa səbəb olurdu. Məsələn, texnika üzrə fəlsəfə doktoru hər hansı bir universitetin texniki fənlər kafedrası üzrə dosent elmi adına layiq görülürdüsə (həmin kafedrada tutaq ki, Nəzəri mexanika fənnini tədris edirdi), bu mütəxəssisin başqa bir universitetdə Nəzəri mexanika kafedrasında dosent vəzifəsində çalışmasına süni problemlər yaradırdı. Səbəb isə dosent elmi adı verilən sənəddə yazılan kafedranın adı olurdu. Belə hallar bütün ixtisaslar üzrə özünü göstərirdi və yüzlərlə alim bundan gileylənib, məsələyə aydınlıq gətirməyi və kömək göstərməyi xahiş edirdilər. (Qeyd edim ki, mən uzun müddət Ali Attestasiya Komissiyasında şöbə müdiri vəzifəsində çalışmışam).

İkinci məqam, əvvəllər ixtisas üzrə dosent olmayan şəxs professor elmi adına layiq görülürdü. İndi isə birmənalı olaraq göstərilir ki, professor elmi adı yalnız dosent elmi adı olan şəxslərə verilir. Bu təqdirəlayiq haldır və həm də burada artıq ədalət prinsipi həyata keçmiş olur.

Digər tərəfdən, əvvəllər dosent elmi adı almaq üçün müdafiədən sonra yalnız adi məqalələr tələb olunurdu. İndi isə yuxarıda yazıldığı kimi, Azərbaycan elminin beynəlxalq aləmdə tanınması məqsədilə, müdafiədən sonra mütləq beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə məqalə dərc olunması tələbi var. Bu da təqdirəlayiq məqamdır. Eləcə də professor elmi adının verilməsində də buna uyğun şərtlər mövcuddur.

Fikrimcə, bu tələblər həm də əsl elm adamına istiqamətlənmişdir və təsadüfi şəxslərə bu nüfuzlu elmi adların verilməsinin qarşısını alır.

Elmi dərəcələrin verilməsi qaydası haqqında əsasnamədə də diqqəti cəlb edən əsas amillər mövcuddur. Ən birinci və sevindirici hal odur ki, artıq elmlər doktoru üçün yazılmış dissertasiya işini yalnız müdafiədən sonra AAK-a təqdim etmək lazım gələcək. Əvvəllər isə elmlər doktoru elmi dərəcəsi almaq üçün yazılmış dissertasiya işi müdafiənin təşkili üçün AAK-a verilirdi və bu dissertasiya işlərinə AAK-da aylarla, hətta illərlə baxılırdı. Yəni müdafiənin təşkili üçün təqdim olunmuş dissertasiya işlərinin müəllifləri haqlı olaraq bundan narazı idilər. Bu halın aradan qaldırılması inqilabi addımdır və iddiaçıların qarşısında olan ciddi baryerlərin aradan qaldırılmasıdır.

Əvvəllər həmin dissertasiya işlərinə AAK-ın müvafiq ekspert şurasında baxılırdı, müsbət qərar verilirdi və müdafiədən sonra, prosedur qaydalarına uyğun olaraq, dissertasiya işinə yenə də həmin ekspert şurasında baxılırdı, hətta çox acınacaqlı olsa da, bəzi dissertasiya işlərinə mənfi rəylər verilirdi. Baxmayaraq ki, bir müddət əvvəl həmin ekspert şurası, hətta həmin tərkibdə bu dissertasiya işinə müsbət qərar vermişdi. Belə hallarda iddiaçılar haqlı olaraq şikayətlər edir və ölkə Prezidentinə müraciətlər ünvanlayırdılar. Bu da AAK-ın nüfuzuna ciddi xələl gətirirdi.

Yeni əsasnaməyə görə, fəlsəfə doktoru imtahanlarının sayı, haqlı olaraq, azaldılmışdır. Bu, iddiaçıların mənafelərinə uyğun və elmin inkişafı naminə verilən qərardır. Əvvəllər isə, informatika və fəlsəfə fənlərindən imtahan verilməli idi. Bu da narazılıqlara gətirib çıxarırdı. Müasir dövrdə kompüterdə işləmək bacarığına, hətta orta məktəb şagirdləri qadirdirlər. Fəlsəfə fənnindən imtahan verməyi isə bu sahənin mütəxəssisləri istisna olmaqla digər iddiaçılardan tələb etmək absurd idi. Yeni əsasnamədə neqativ hallara yol açan bu tələblərin azaldılması təqdirəlayiqdir.

Dissertasiya şuralarının fəaliyyət müddətinin üç ilədək uzadılması məqsədə müvafiqdir və bu hal AAK və elmi təşkilatlar arasında lazımsız məktublaşmanı kifayət qədər azaldır.

Dissertasiya şuralarında bir ay ərzində iki fəlsəfə doktoru və bir elmlər doktoru və ya dörd fəlsəfə doktoru dissertasiyanın müdafiəsinə icazə verilməsini də inqilabi dəyişiklik hesab etmək olar. Bu məqam, dissertasiya şuralarında olan növbəliliyin artmasının qarşısını alır və həmin növbəlilikdən neqativ hallar üçün istifadəni də aradan qaldırır.

Rəsmi opponentlərin sayının artırılması dissertasiya işlərinə baxılmasına daha çox mütəxəssislərin cəlb olunması siyasətidir. Və bu da düzgün siyasətdir. Dissertasiya işlərinə nə qədər çox mütəxəssis rəy yazırsa, iddiaçılar da bir o qədər məsuliyyətli olurlar. Çünki elm ictimaiyyəti yaxşı bilir ki, dissertasiya işlərini diqqətlə və ciddi oxuyan, əsasən elmi rəhbər, rəsmi opponentlər və rəyçilərdir. Buna görə həmin məqam da alqışlanmalıdır.

Yeni əsasnamədə son dövrlərdə yalnız formal xarakter daşıyan prosedurlardan biri olan dissertasiya işinin aparıcı təşkilatlarda müzakirəsi ləğv edilmişdir. Bu siyasət də iddiaçının maraqlarına istiqamətlənmişdir və əvvəllər, aparıcı təşkilatlarda müzakirə onlara süni problemlər yaradırdı. Məntiqi baxımdan da bu düzgün addımdır. Çünki adətən əksər hallarda dissertasiya işinin yerinə yetirildiyi elm-təhsil müəssisəsində ilkin müzakirə zamanı daha çox obyektiv fikirlər söylənilir, ciddi müzakirələr olur və burada iştirak edən mütəxəssislər dissertasiya işinin profilinə daha yaxındırlar. Aparıcı təşkilatların ləğvi ilkin müzakirəyə daha çox məsuliyyətli olmağı tələb edir.

Sənəddə diqqəti çəkən digər məqamlar da var. Bunlar elm ictimaiyyəti tərəfindən müsbət qarşılanır.

Hesab edirəm ki, Ali Attestasiya Komissiyasının yeni rəhbəri və kollektivi bu əsasnamənin hazırlanmasında ciddi əmək sərf etmişdir. Başlıca amil odur ki, əsasnamənin müddəaları iddiaçıların mənafeyinə zidd deyildir, əksinə, lazımsız baryerlərə səbəb olan köhnə əsasnamədəki məqamlar aradan qaldırılmışdır. Bir də xatırlatmaq istərdik ki, bəzi yeni tələblərin olması isə Azərbaycan elminin beynəlxalq aləmdə tanınmasına yönəlmiş siyasətdir.

Elm xadimləri inanır ki, Ali Attestasiya Komissiyası ölkə Prezidenti tərəfindən təsdiq olunmuş yeni əsasnamələrin hər bir maddəsinin həyata keçirilməsinə ciddi nəzarət edəcək.

***Arif ƏLƏKBƏROV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru***

# Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# "Azərbaycan" qəzetinin 100 illiyinə həsr olunan elmi konfrans









İyunun 27-də "Azərbaycan" qəzeti: tariximizin güzgüsü" mövzusunda elmi konfrans keçirilib. Tədbir "Azərbaycan" qəzetinin 100 illiyinə həsr edilib. Elmi konfransın təşkilatçıları AMEA-nın Tarix İnstitutu və "Azərbaycan" qəzetidir.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov "Azərbaycan" qəzetinin Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, Cümhuriyyət tarixinin öyrənilməsində "Azərbaycan" qəzetində dərc olunmuş materialların ilk mənbə kimi əhəmiyyəti böyükdür. Qəzetin ilk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edilib. Qəzetin Gəncədə Azərbaycan dilində buraxılmış səhifələrinin başında qəzetin adı ilə yanaşı "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" yazısı da verilib.

Yaqub Mahmudov qeyd edib ki, "Azərbaycan" qəzeti 1918-1920-ci illər ərzindəki saylarında Azərbaycanın dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını geniş əks etdirib: "Qəzetdə erməni-daşnak qulduru Andronikin Zəngəzur, Naxçıvan və Qarabağda Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı, vəhşiliklər, Ermənistan respublikası ərazisində yaşayan azərbaycanlıların acı taleyi, onların kütləvi surətdə məhv edilməsi və ata-baba torpaqlarından qovulması haqqında çoxlu məlumatlar dərc edilmişdi".

Akademik bildirib ki, Cümhuriyyət dövründə ölkənin böyük ziyalıları - Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim və Üzeyir bəy Hacıbəyli "Azərbaycan" qəzetinin baş redaktorları olublar: "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nda "Azərbaycan" qəzeti və qəzetin ilk redaktorları barədə geniş məqalələr yer alıb. Cümhuriyyət tarixinin bəzi xadimləri ağır təqiblər şəraitində ölkəni tərk etsələr də, Üzeyir bəy onu nələr gözlədiyini bildiyi halda heç yana getmədi. Yəni vətən yolunda şəhid olmağı şərəf sayaraq, ölümün gözünə dik baxıb burada yaşadı".

"Tarix İnstitutu ilə "Azərbaycan" qəzeti arasında çox sıx əməkdaşlıq mövcuddur. Qəzetdə tarixçilərimizin azərbaycanlıların soyqırımı, İrəvanın, Naxçıvanın, Qarabağın tarixi, müxtəlif dövrlərdə erməni millətçilərinin xalqımızın başına açdıqları qanlı olaylar barədə məqalələri dərc olunur" deyə tarixçi alim qeyd edib.

Elmi konfransda Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov "Dövrümüzün obyektiv salnaməçisi və etibarlı arxivi" mövzusunda məruzə ilə çıxış edib.

Bəxtiyar Sadıqov bildirib ki, müstəqil Azərbaycanın quruculuq və inkişaf dövrünün salnaməsini öz səhifələrində əbədiləşdirən "Azərbaycan" Cümhuriyyət dövründə çıxan "Azərbaycan"ın varisidir: "Azərbaycan" bizim müstəqilliyimizin qeyri-rəsmi simvoludur. Qəzetin ilk redaktoru Üzeyir bəy Hacıbəylinin kiçik qardaşı Ceyhun bəy Hacıbəyli olmuşdu. Qəzetin səhifələrində Üzeyir bəy Hacıbəylinin Azərbaycan tarixinə, siyasi vəziyyətinə, iqtisadiyyatına, sənayesinə, maarif və mədəniyyətinə və s. aid 100-dən çox məqaləsi dərc olunub".

"Cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin dörd baş redaktoru olub. Onlardan yalnız Üzeyir Hacıbəyli özünün musiqi dühası ilə sovet repressiyasından xilas ola bilib. Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli ömürlərini qürbətdə, sıxıntılar içərisində başa vurublar. Xəlil İbrahimin isə heç qəbrinin harada olduğu məlum deyil. Sovet dönəmində Cümhuriyyətin qurucuları kimi, qəzetin də üzərinə qadağa qoyulmuşdu. Hətta BDU-nun Jurnalistika fakültəsində bu qəzetlə bağlı nəinki 5 dəqiqə, ümumiyyətlə, heç söhbət getmirdi. "Müsavat təmayüllü qəzet" deyib susurdular" deyə baş redaktor qeyd edib.

Deputat deyib ki, "Azərbaycan" qəzeti ölkəmizin tarixində, onun bugünkü inkişafında və xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında mühüm rol oynayıb və oynayır: "Ulu öndər Heydər Əliyev daim redaksiyamızla əlaqə saxlayıb, tövsiyə, məsləhət və iradları ilə bizi öyrədib, peşəkarlığımızın yüksəlməsinə şəxsi töhfəsini verib. Jurnalist yaradıcılığına bu qayğını Prezident İlham Əliyevdən də görürük. Ulu öndər və Prezident İlham Əliyev "Azərbaycan" qəzetinin kollektivinə müxtəlif dövrlərdə təbrik məktubları göndəriblər".

Bəxtiyar Sadıqov Tarix İnstitutuna "Azərbaycan" qəzetinin Cümhuriyyət dövründə dərc edilmiş nömrələrini elektron variantda, Yaqub Mahmudov isə qəzetə institutun nəşrlərini - "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən dahi sərkərdə", "Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü" və "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Hindistan Milli Arxivinin sənədlərində" kitablarını təqdim edib.

Konfransda həmçinin "100 yaşlı "Azərbaycan" kitabının təqdimatı olub. Kitabda ölkənin tanınmış ictimai-siyasi xadimlərinin, elm adamlarının qəzet haqqında məqalələri dərc olunub və qəzetin bütün fəaliyyətinə işıq salınıb. Nəşrin redaktoru "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, buraxılışa məsul şəxs isə əməkdar jurnalist İxtiyar Hüseynlidir.

Tarixçi alimlər Tofiq Nəcəfli və Cəbi Bəhramov "Müstəqillik dövründə Azərbaycan tarixi məsələləri "Azərbaycan" qəzetinin səhifələrində", Vaqif Abışov "Azərbaycan" qəzetinin səhifələrində Türkiyə tarixinin əksi (1918-1920-ci illər)", İlqar Niftəliyev "1918-1920-ci illərdə İrəvan quberniyasında azərbaycanlıların soyqırımı "Azərbaycan" qəzetinin səhifələrində", Rəşad Rüstəmov "Azərbaycan Xalq Cümhuriyyəti mövzusu "Azərbaycan" qəzetinin səhifələrində (müasir dövr)" və Akif Vəliyev "Qafqaz İslam Ordusu hərəkatı "Azərbaycan" qəzetində" mövzuları ilə çıxış ediblər.

Konfransda bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də işə başladıqdan sonra "Azərbaycan" qəzeti onun fəaliyyətini geniş işıqlandırıb və parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları "Azərbaycan Məclisi-Məbusanında" rubrikasında dərc edib. Bundan başqa, qəzetdə "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və digər daimi rubrikalar da var idi.

Qeyd edilib ki, "Azərbaycan" qəzeti ölkəmizdə elmi və yaradıcı mühitin sanballı tərənnümçüsüdür.

# AŞPA sessiyası çərçivəsində "Yeni çağırışlar və Azərbaycanda davam edən islahatlar" mövzusunda tədbir keçirilib

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyası çərçivəsində Avropa Şurası yanında daimi nümayəndəliyimizin və AŞPA-dakı nümayəndə heyətimizin birgə təşkilatçılığı ilə "Yeni çağırışlar və Azərbaycanda davam edən islahatlar" adlı tədbir təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə vətəndaş cəmiyyəti təşkilatları və Azərbaycan hökuməti nümayəndələrinə ölkəmizdə davam edən islahatlara dair müvafiq perspektivləri bölüşmək imkanı yaradıb. İştirakçılara penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı və Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı haqqında ətraflı məlumat verilib. AŞPA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov, nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva, Avropa İnsan Haqları Məhkəməsində (AİHM) səlahiyyətli nümayəndə Çingiz Əsgərov və Azərbaycanın İnsan hüquqları müdafiə mərkəzinin direktoru Eldar Zeynalov çıxış edərək, ölkəmizdə hüquq, məhkəmə və penitensiar sistemdə, sosial sahədə həyata keçirilən islahatlardan, gənclər siyasəti, uşaq və qadın hüquqları, vətəndaşların rifahının yaxşılaşdırılması məqsədilə imzalanmış sərəncam və fərmanlar barədə söz açıblar.

Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə fəaliyyəti təkmilləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, infrastruktur müasirləşdirilir. Ölkədə bu sahədə görülən işlər fəaliyyətin yüksək səviyyədə təşkilinə, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və insan hüquqlarının etibarlı təminatına töhfə verib. Prezidentin sərəncamının məqsədi ölkəmizin inkişafı və əldə edilən hərtərəfli uğurlar fonunda cəza siyasətinə, cinayət qanunvericiliyinə, məhkumların hüquqlarının təminatı məsələlərinə baxışın yenilənməsi, penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə mütərəqqi təcrübələrin tətbiqidir.

Bildirilib ki, vətəndaşların hüquq və azadlıqlarının tam təmin edilməsi ölkəmizdə həyata keçirilən islahatların ümdə məqsədidir. Bu məqsədə nail olmaq üçün ötən illər ərzində bir çox qanunvericilik təşəbbüsləri irəli sürülüb, fəaliyyət planları və siyasi qərarlar qəbul edilib. Yeni çağırışlar mövcud sistemi nəzərdən keçirməyi və mütəmadi olaraq yeni addımlar atmağı tələb edir.

Tədbirdə ölkəmizdə vətəndaş cəmiyyəti təşkilatları ilə dövlət qurumları arasında qarşılıqlı əlaqələrin inkişafından, dialoq platformasından da bəhs olunub.

Sonda tədbir iştirakçıları çıxışlarla bağlı fikirlərini bildirib, Azərbaycanda gedən islahatları yüksək qiymətləndiriblər. Ölkəmizdə islahatların bundan sonra da uğurla həyata keçiriləcəyi, hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının birgə fəaliyyət göstərməsi üçün dialoq platformasının davam etdiriləcəyi vurğulanıb.

# Azərbaycanın beynəlxalq təşkilatlarda yüksək nüfuzu var

## QDİƏT Parlament Məclisi Baş Assambleyasının 53-cü plenar sessiyasında ölkəmizlə bağlı həqiqətlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı

*Əvvəli 1-ci səh.*




*Parlament Məclisinin Baş Assambleyası ildə iki dəfə toplanır. Baş Assambleyanın 53-cü plenar sessiyası Bakıda Milli Məclisdə keçirildi. Bildiyiniz kimi, ötən ilin noyabrında Yerevanda keçirilən 52-ci sessiyada QDİƏT Parlament Məclisinə sədrlik Azərbaycana keçmişdi. Təşkilata sədrlik əlifba sırası əsasında, rotasiya qaydasına uyğun olaraq 6 ay çəkir. Buna görə Məclisə rəhbərliyi bu dövrdə Milli Məclisin Sədri Oqtay Əsədov həyata keçirdi".*

Eldar Quliyevin sözlərinə görə, Bakıda keçirilən 53-cü sessiyada QDİƏT PM-də təmsil olunan 12 dövlətdən 10-nun nümayəndə heyəti iştirak etdi. *"Sessiyanın işində 10 dövlətdən 150-dən artıq parlamentar iştirak etdi. Gəlməyənlərdən biri Ermənistan nümayəndə heyəti idi. Onlara verilən zəmanətə baxmayaraq, Bakıya gəlməkdən imtina etdilər. Əslində bununla erməni tərəfi bir daha qeyri-konstruktiv mövqe ortaya qoydu. Halbuki keçən ilin noyabrında Yerevanda keçirilən 52-ci sessiyada Azərbaycan nümayəndə heyət iştirak etmişdi. Onu da qeyd edim ki, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, ATƏT Parlament Assambleyasının, NATO Parlament Assambleyasının, MDB Beynəlxalq Parlament Assambleyasının, İƏT Parlament İttifaqının, Baltik Dənizi Parlament Konfransının, Almaniya Bundestaqının, İsrail Knessetinin, Fransa Milli Assambleyasının və Senatının, eləcə də Misir, Belarus, Slovakiya parlamentinin müşahidəçiləri iştirak edirdilər. Bütün bunlar QDİƏT PM-in 53-cü sessiyasının beynəlxalq miqyasda kifayət qədər maraqla qarşılandığını göstərir".*

QDİƏT PM Baş Assambleyasının 53-cü plenar sessiyasında giriş nitqi söyləyən QDİƏT PM-in fəaliyyətdə olan sədri, Milli Məclisin spikeri Oqtay Əsədov qeyd edib ki, Parlament Assambleyasının plenar sessiyasının 6 il sonra yenidən Bakıda keçirilməsinin rəmzi mənası var: "Bu 6 il Azərbaycanın yaxından iştirakı ilə həyata keçirilən nəhəng nəqliyyat-enerji layihələrinin köməyi ilə bölgənin iqtisadi mənzərəsinin dəyişdirilməsində mühüm bir dövr olub. Qara dəniz iqtisadi məkanında beynəlxalq və regional əməkdaşlığın gözəl nümunələri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri, digər transmilli layihələr nəinki bölgəmizin, həm də Avropa qitəsinin yeni iqtisadi xəritəsinin formalaşmasında mühüm rol oynayır, onun enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. Bu layihələr arasında 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmiryol xəttinin və reallaşdırılmaqda olan TAP qaz kəmərinin əhəmiyyəti xüsusi qeyd edilməlidir".

İclasda Azərbaycanın və Bolqarıstanın xarici işlər nazirlərinin sessiyaya ünvanlanmış təbrik məktubları oxunub. Hər iki məktubda QDİƏT PM-in fəaliyyəti yüksək dəyərləndirilib. Hazırkı tədbirə evsahibliyi edən Milli Məclisin rəhbərliyinə təşəkkür bildirilib.

### Ermənilərin qurumun Baş katibi vəzifəsi ilə bağlı iddiaları baş tutmadı

İclasda qurumun fəaliyyətində fərqlənən deputatlara medallar da təqdim edilib. Qurumun fəaliyyətində fərqlənmiş Otari Danelia (Gürcüstan), Mixail Yemelyanov (Rusiya), Cemal Öztürk (Türkiyə), Refat Çubarov (Ukrayna), Ramazan Can (Türkiyə), David Saqanelidze (Gürcüstan), Georq Vlad Nistor (Ruminiya), Ramaz Nikolaşvili (Gürcüstan) və Eldar Quliyev (Azərbaycan) Fəxri medala layiq görülüblər. Xatırladaq ki, təltif olunan Türkiyə, Ukrayna və Gürcüstandan olan deputatlar, o cümlədən Eldar Quliyev QDİƏT PM-in yaradılmasının 25 illiyi ilə bağlı medalı keçən il Yerevanda almaqdan imtina etmişdilər.

Eldar Quliyev dedi ki, sessiyada qurumun ötən payız keçirilmiş 52-ci plenar iclasının protokolu təsdiqlənib. Gürcüstanın Acarıstan Muxtar Respublikasının Ali Sovetinə QDİƏT PM-in tərəfdaşı statusu verilib. Sonra təşkilati məsələlərə baxılıb. Prosedur qaydalarına müvafiq olaraq Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin sədr müavinləri seçilib. Yeni seçilən müavinlərdən biri də Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyevdir.

QDİƏT Parlament Məclisinin Baş katibi vəzifəsinə isə gizli səsvermə ilə yenidən Asəf Hacıyev seçilib. Bu barədə danışan Eldar Quliyev dedi ki, Ermənistan nümayəndə heyəti Asəf Hacıyevin növbəti müddətə Baş katib seçilməməsi üçün əvvəlcədən ciddcəhdlə iş aparırdı. Lakin istəklərinə nail ola bilmədilər və Bakıda keçirilən səsvermədə Asəf Hacıyev böyük səs çoxluğu ilə yenidən qurumun Baş katibi postuna layiq görüldü. O, qarşıdakı 5 il müddətində bu vəzifəni icra edəcək.

### Prezident İlham Əliyev QDİƏT PM-in "Şərəf" medalına layiq görüldü

53-cü sessiyada QDİƏT PM-ə sədrlik 6 ay müddətinə Azərbaycandan Bolqarıstana keçdi. Milli Məclisin Sədri Oqtay Əsədov rəmzi çəkici Bolqarıstan Milli Assambleyasının sədri Tsveta Karayançevaya təqdim etdi. Estafeti qəbul edən T.Karayançeva çıxışında vurğulayıb ki, Azərbaycanın assambleyadakı 6 aylıq sədrliyi çox məhsuldar keçib və qurumun inkişafına layiqli töhfələr verib. Tsveta Karayançeva onu da bəyan etdi ki, Azərbaycan Prezidenti İlham Əliyev təşəbbüskarı olduğu irimiqyaslı enerji layihələrinə, neft-qaz kəmərləri və infrastruktur layihələrinə görə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin "Şərəf" medalına layiq görülüb. İclasda həmin ali mükafat Azərbaycan parlamentinin rəhbərinə təqdim olunub.

Sessiya çərçivəsində aparılan müzakirələrdən biri "QDİƏT regionunda dayanıqlı energetikanın inkişafında parlamentlərin rolunun möhkəmləndirilməsi" mövzusuna həsr edilib. İqtisadi, ticarət, texnoloji və ekoloji məsələlər gündəmdə olub. Məruzələrə dair tövsiyələr qəbul edilib. Yekunda parlament assambleyalarının və beynəlxalq təşkilatların nümayəndələri fikirlərini bölüşüblər.

### Ermənistan status-kvonu saxlamağa çalışır

"Qara Dəniz İqtisadi Əməkdaşlığına üzv ölkələrdə demokratiyanın möhkəmlənməsində ombudsman institutlarının rolu" mövzusunda məruzənin müzakirəsi zamanı çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev Azərbaycanda ombudsman institutunun yaranması, fəaliyyəti və ölkəmizin insan hüquqları sahəsində əldə etdiyi nailiyyətlər barədə məlumat verib. Eldar Quliyevin bildirdiyinə görə, daha sonra o, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasından və işğalın bu gün də davam etdirilməsindən danışıb. Diqqətə çatdırıb ki, hüquqları işğalçı dövlət tərəfindən pozulmaqda davam edən 1 milyondan çox qaçqın və məcburi köçkün Azərbaycanda yaşayır. Dövlət tərəfindən həmin şəxslərin bütün sosial məsələlərinin həlli diqqətdə saxlanılır, onlar üçün şəhərciklər salınır, işlə təmin olunur, övladlarının təhsil haqqı dövlət hesabına ödənilir və s. Buna baxmayaraq, onların ən böyük istəyi öz ata-baba yurdlarına qayıtmaqdır.

Eldar Quliyev xatırladıb ki, cəbhə bölgəsində atəşkəsin olmasına baxmayaraq, Azərbaycan itkilərə məruz qalır: "Bir neçə gün öncə Azərbaycan Ordusunun zabiti, tabor komandiri 36 yaşlı Aqil Omarov erməni snayperi tərəfindən qətlə yetirildi, onun ailəsi, o cümlədən iki azyaşlı uşağı başsız qaldı. Sonrakı günlərdə isə yaşı hələ 20-yə çatmamış bir əsgərimiz ermənilər tərəfindən öldürüldü. Amma dəhşətə bax ki, Ermənistan müdafiə naziri buna görə qatili medalla mükafatlandırdı və çıxışında öldürmək lazım gəldiyini xüsusilə vurğuladı".

Deputat Azərbaycanın sülh tərəfdarı olduğunu bildirərək deyib: "Biz bu münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarıyıq. Prezident İlham Əliyev də dəfələrlə bəyan edib ki, ərazilərimiz işğaldan azad olunmalı, bütün dünya tərəfindən tanınmış ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Yalnız məcburi köçkünlərimiz öz yurdlarına qayıtdıqdan sonra Dağlıq Qarabağa ən yüksək muxtariyyət verilərək ermənilərlə birgəyaşayış təmin oluna bilər. Təhlükəsizliyi isə sülhməramlı qüvvələr təmin edə bilər. Lakin Ermənistan tərəfindən nümayiş etdirilən qeyri-konstruktiv mövqe onların qəsdən vaxt uzatmağa çalışdıqlarını, mövcud status-kvonu saxlamağa cəhd etdiklərini göstərir". E.Quliyev Baş Məclisin Yerevanda keçirilən iclasında Azərbaycan nümayəndə heyətinin iştirak etməsinə baxmayaraq, dövlətimiz tərəfindən təhlükəsizliklərinə zəmanət verilsə də, Ermənistan nümayəndələrinin toplantıya qatılmadıqlarını diqqətə çatdırıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Ermənistanda girov saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovun məsələsinə də toxunub. "Ermənistan hələ də əsir götürdüyü Azərbaycan vətəndaşlarını girov saxlayır. Bir neçə il əvvəl erməni separatçılarının işğalı altında olan əzəli Azərbaycan torpaqlarına valideynlərinin və qohumlarının qəbirlərini ziyarət etmək üçün keçmək istəyən üç nəfər mülki Azərbaycan vətəndaşından biri öldürülmüş, iki nəfəri isə indiyədək girov saxlanılır. Azərbaycan rəhbərliyi Ermənistanın yeni hökumətinə girovları "hamının-hamıya" prinsipi ilə mübadilə etmək təklifi ilə müraciət etsə də, erməni tərəfi bunun əleyhinə oldu. Biz bütün girovları dəyişməyi təklif etmişik. Bu, bütün insan hüquqlarının pozulmasının birbaşa göstəricisi deyilmi?" - deyə Eldar Quliyev bildirib.

Yekunda Eldar Quliyev bildirdi ki, QDİƏT PM Baş Assambleyasının 53-cü sessiyası zamanı Azərbaycan həqiqətləri bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Sessiya həm də yüksəksəviyyəli təşkilatçılığı ilə yadda qaldı. Bir daha təsdiq olundu ki, Azərbaycan istənilən beynəlxalq tədbirə layiqincə evsahibliyi etməyə qadirdir.

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dövlətin orduya, hərbçilərə qayğısı tükənməzdir

## Prezident İlham Əliyevin Silahlı Qüvvələr Günündə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gəlişi məktəbin salnaməsində mühüm hadisəyə çevrildi

*Əvvəli 1-ci səh.*

Bununla yanaşı, köhnə tikililər də əsaslı təmir edilib, yeni qurğu və avadanlıqlarla təmin olunub. Sahəsi 1800 kvadratmetr olan üçmərtəbəli yeni qərargah binası tikilib. Görülən abadlıq tədbirləri sayəsində ətraf yaşıllığa bürünüb.

Liseydə təhsil alanlar tibb məntəqəsinin geniş xidmətlərindən də istifadə edə bilirlər. İkimərtəbəli binada yerləşən 32 çarpayılıq məntəqədə funksional diaqnostika, həkim, oftalmoloji kabinetlər, laboratoriya, sarğı otağı, təxirəsalınmaz yardımın göstərilməsi üçün otaq, xidməti otaqlar, palatalar və müasir yeməkxana yaradılıb. Bu da şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi yardımın göstərilməsinə imkan verir.

Qapalı idman kompleksində isə kursantların idmanla məşğul olması üçün hərtərəfli şərait yaradılıb. Kompleksdə trenajor, gimnastika zalları, minifutbol, basketbol və voleybol oyunlarının keçirilməsi üçün meydança var.

Bu il iyunun 26-da Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gələrək burada aparılan yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub. Müdafiə naziri Zakir Həsənov görülmüş işlər barədə dövlət başçısına ətraflı məlumat verib.

İndi, yenidənqurmadan sonra fənn kabinetlərində, laboratoriyalarda kursantların bilik və hazırlıqlarının artırılması üçün şərait daha da yaxşılaşdırılıb. Təntənəli mərasimlər, sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sahəsi üç min kvadratmetr olan meydan salınıb, tribuna inşa edilib.

Yeri gəlmişkən qeyd edək ki, bu gün Azərbaycan Ordusu döyüş qabiliyyətinə, maddi-texniki bazasına, müasir silah-sursat arsenalına görə dünyada ön yerlərdən birini tutur. Çünki ölkədə ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla uğurla reallaşdırılır. Başqa sözlə, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində son illərdə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Milli Ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə tikilmiş kursant yeməkxanasının şəraitinin timsalında Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların qidalanması məsələsinin də diqqət mərkəzində olduğunu aydın görmək mümkündür. Burada eyni vaxtda 600 kursant nahar edə bilir. Yeməkxana kompleksində yemək zalı, mətbəx və təsərrüfat otaqları, ərzaq anbarları və soyuducular fəaliyyət göstərir.

Prezidentin liseyə gəlişi xoş bir günə, 26 İyun - Silahlı Qüvvələr Gününə təsadüf etmişdi. Odur ki, dövlət başçısı, Ali Baş Komandan müəllim və kursantları bayram münasibətilə təbrik edərək onlara yeni uğurlar arzuladı: "Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir. Ulu öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək... Sizə - burada oxuyan kursantlara və çalışan müəllimlərə yeni uğurlar, cansağlığı arzulayıram. Vətənin qorunması işində siz həmişə fəal olmalısınız və öz gücünüzü göstərməlisiniz".

Cəmşid Naxçıvanski adına Hərbi Lisey bu etimadı həmişə doğruldur. Məktəbin müəllimləri keçdikləri təlim və dərslərlə, kursantları qazandıqları bilik və bacarıqla, məzunları isə vətənə nümunəvi xidmətləri ilə, hünər və cəsarətləri ilə... Təsadüfi deyil ki, indiyədək doğma torpağın müdafiəçiləri sırasında bu məktəbin də yüzlərlə məzunu olub, onlar bu gün də vətənin keşiyindədirlər.

Yaşı yarım əsrə yaxınlaşan Naxçıvanski məktəbinin (xalq hörmət bəslədiyi bu liseyi qısaca belə adlandırır) salnaməsi davam edir. Burada yaradılmış muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin liseyə qayğısını əks etdirən sənədlər, fotolar şəxsi heyətə böyük etimadın nümunəsi kimi qorunub saxlanır. Binanın qarşısında general Cəmşid Naxçıvanskinin büstü ucalaraq gənclərə hər an ata-babalarının qəhrəmanlığını xatırladır...

Prezident İlham Əliyevin iyunun 26-da buraya gəlişi isə liseyin həyatında unudulmaz bir gün olaraq onun salnaməsinin növbəti mühüm səhifəsinə çevrildi.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində növbəti plenar sessiya keçirilib

## Plenar sessiya "Transformasiyanı şərtləndirən innovasiyalar" mövzusuna həsr olunub

Birləşmiş Millətlər Təşkilatının və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən BMT-nin Dövlət Xidmətləri Forumu iyunun 26-da işini davam etdirib.




AZƏRTAC xəbər verir ki, Misirin Qahirə Amerika Universitetinin Qlobal Məsələlər və Dövlət Siyasəti Məktəbinin professoru Laila El Baradeyin moderatorluğu ilə "Transformasiyanı şərtləndirən innovasiyalar" mövzusunda keçirilən plenar sessiyada "Gogontlejang Phaladi Ümid Sütunu" Təşkilatının (GPPHO) təsisçisi və icraçı direktoru Gogontlejang Faladi, "Blockchain Global" şirkətinin təsisçisi və baş icraçı direktoru Sam Li, Böyük Britaniyanın Telekommunikasiyalar Təşkilatının İKT üzrə İnkişaf Bölməsinin rəhbəri Gisa Fuatai Purcell, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan İnnovasiyalar Mərkəzinin direktoru Tağı Tağızadə çıxış ediblər.

İnnovasiyalar Mərkəzinin startapların və innovativ sahibkarlığın təşviqi üçün işlər gördüyünü deyən qurumun direktoru Tağı Tağızadə bildirib: "Startapların alət və məhsullarını biznesə gətirməyə çalışırıq. Burada müəyyən çətinliklər də var. Lakin ölkələr arasında körpü qurulması startaplara yeni investorların tapılmasına kömək edir. Startapların mal və məhsullarının bazara çıxarılması üçün infrastruktur yaradılması vacibdir. Azərbaycanda innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi fəaliyyət göstərir".

Mərkəzin direktoru qeyd edib ki, innovasiya və rəqəmsal texnologiyalar Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunmasında mühüm rola malikdir. O, 2030-cu ilədək DİM-in bütün məqsədlərinə nail olunacağına ümid etdiyini bildirib.

Digər çıxış edənlər təmsil etdikləri qurumların gördüyü işlər haqqında ətraflı məlumat verib, forumun DİM-ə nail olunmasında əhəmiyyətli rol oynayacağına inandıqlarını diqqətə çatdırıblar.

Plenar sessiyanın ardınca Dövlət Sektorunun İnkişafı İnstitutunun Dövlət İslahatları üzrə eksperti Nik Thjis tərəfindən BMT-nin Dövlət Xidmətləri Forumunun nəticələrinə dair hesabat təqdim olunub.

# BMT-nin Bakı Forumunda nazirlərin "dəyirmi masa"sı təşkil olunub




Bakıda keçirilən BMT-nin Dövlət Xidmətləri Forumu davam edir. AZƏRTAC xəbər verir ki, forum çərçivəsində iyunun 26-da "Xidmətlərin səmərəli çatdırılması, yenilikçi transformasiya və məsuliyyətli institutların gücləndirilməsi üçün milli və yerli fəaliyyətin təşviqi" mövzusu üzrə nazirlərin "dəyirmi masa"sı təşkil edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparat rəhbəri Azad Cəfərli bildirib ki, üç gün davam edən tədbir fikir mübadiləsi baxımından çox səmərəlidir. O deyib: "Hazırda Azərbaycanda 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Mərkəzlərdə 17 min könüllü var. Onlardan 1500 nəfəri işlə təmin olunub. "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin təşkili prosesinə vətəndaşların cəlb edilməsi, yaradıcı, sosial və ictimai əhəmiyyətli ideyaların toplanılması üçün elektron "İdeya Bankı" da yaradılıb.

"Dəyirmi masa" zamanı dövlət xidmətlərinin göstərilməsi, effektiv təsisatlar, Davamlı İnkişaf Məqsədləri ilə bağlı çağırışlara və digər çətinliklərə münasibətdə ayrı-ayrı ölkələrin gördükləri tədbirlər, təcrübələr, həmçinin birgə görülməli olan digər fəaliyyət növləri barədə müzakirələr və fikir mübadiləsi aparılıb.

# BMT-nin Dövlət Xidmətləri Forumu başa çatıb



Bakıda keçirilən BMT-nin Dövlət Xidmətləri Forumunun iyunun 26-da bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən BMT-nin Təhsil və Tədqiqat Mərkəzinin icraçı direktoru Nixil Set hökumətlərin Dayanıqlı İnkişaf Məqsədlərini milli proqramlarına daxil etməsini yüksək qiymətləndirib.

Nixil Set həmçinin qeyd edib: "Son illər dünyada aclıq, yoxsulluq və uşaq ölümləri halları çoxalıb, həssas qrupların vəziyyətində müsbət dəyişiklik qeydə alınmayıb. Münaqişələr və qeyri-sabitlik artıb, nəticədə 105 milyon insan öz evindən didərgin düşüb. Onların 80 faizindən çoxu inkişaf etməkdə olan ölkələrin sakinləridir".

İcraçı direktor Azərbaycanın "ASAN xidmət" modelinin keyfiyyətli dövlət xidmətləri təklif etdiyini bildirib. O, bu modelin digər ölkələr üçün nümunə olduğunu qeyd edib.

Nixil Set forumda müzakirə edilən məsələlərin və əldə edilən həll yollarının iştirakçı ölkələrdə tətbiq olunacağına ümid etdiyini vurğulayıb.

O, tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev forumun keçirilməsində məqsədin dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual olan məsələlər üzrə müzakirələrin aparılması, habelə dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsi olduğunu vurğulayaraq deyib: "Dünyanın 190-dan çox ölkəsindən 800-dən artıq nümayəndənin iştirak etdiyi builki foruma müxtəlif ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirləri, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxsləri qatılıblar. Dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizdə təşkil olunmuş ilk BMT tədbiri olan bu forum çərçivəsində plenar sessiyalar, 9 fərqli aktual mövzu üzrə seminar və 3 paralel tədbir təşkil olunub. Eyni zamanda, 5 fərqli kateqoriya üzrə BMT Dövlət Xidmətləri Mükafatının builki qalibləri təltif edilib. Bununla yanaşı, Azərbaycan rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatına layiq görülüb.

Agentliyin təşəbbüsü ilə dövlət xidmətlərinin göstərilməsi üzrə "ASAN Beynəlxalq Assosiasiyası"nın yaradılmasına dair Niyyət Bəyannaməsi, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Türkiyə Respublikası Nəqliyyat və İnfrastruktur Nazirliyi və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi arasında dövlət xidmətlərinin göstərilməsi və e-hökumət sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu imzalanıb".

Bununla da forum işini yekunlaşdırıb.

Sonda kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib, onların sualları cavablandırılıb.

II Avropa Oyunları

# Güləşçilərimiz Minskdə də tarix yazırlar

*Əvvəli 1-ci səh.*



Rəqibi üzərində inamlı qələbə qazanan (10:3) pəhləvanımız mübarizəni davam etdirərək, üçüncü yer uğrunda görüşdə ukraynalı Vasil Mixaylovu asanlıqla məğlub edib və bürünc medalın sahibi olub.

125 kq çəkidə yarışan Camaləddin Məhəmmədovun rəqibi Rares Çintoan (Rumıniya) olub. 12:2 hesabı ilə qələbə qazanan Camaləddin də II Avropa Oyunlarını 3-cü yerdə başa vurub.

86 kq çəki dərəcəsində mübarizə aparan Aleksandr Qostiyev isə bürünc medal uğrunda mübarizədə San-Marino təmsilçisi Amine Miles Nazemə uduzub.

## Hacı Əliyev "Minsk-2019"un qalibidir

İyunun 26-da daha 3 sərbəst güləşçimiz mübarizəyə qoşulub. Yığmamızın liderlərindən biri - Hacı Əliyev (65 kq) 1/8 finalda erməni Valodya Franqulyana göz açmağa imkan verməyib - 6:0. 1/4 finalda belaruslu George Koliyevlə güləşdə də idmançımız əzmkarlıq nümayiş etdirərək 7:5 hesablı qələbə qazanıb. Hacı yarımfinalda Ukraynanı təmsil edən Xor Ohanesyanla qarşılaşıb. Gərgin keçən görüşdən qalib ayrılan pəhləvanımız finala yüksəlib.

Dünən həlledici mərhələnin görüşləri keçirilib. Qızıl medalın taleyi gürcüstanlı Vladimer Xiceqaşvili ilə görüşdə həll olunub. Görüş 10:2 hesabı ilə pəhləvanımızın xeyrinə başa çatıb. Rio Olimpiadasının qalibi olan rəqibini asanlıqla məğlub edən Hacı ölkəmizin hesabına 2-ci qızıl medalı yazdırıb.

Əhsən, üçqat dünya və üçqat Avropa çempionumuza! Dövlət himnimiz səsləndi, bayrağımız ən yüksəkdə dalğalandı.

Final qarşılaşmasından sonra Hacı Əliyev bildirdi ki, əvvəlki qarşılaşmalarda rəqibinə uduzmağına baxmayaraq, final görüşünə çox ciddi hazırlaşmışdı: "Gürcüstanlı Olimpiya çempionunun qarşılaşmalarını ciddi təhlil etdiyimdən bu görüşdə qalib gələrək II Avropa Oyunlarının qızıl medalını qazana bildim. Final görüşünün çətin olacağını əvvəlcədən bilirdim. Çünki rəqib olduqca güclü idmançıdır. Növbəti hədəfim Tokio Olimpiadasında qızıl medal qazanmaqdır".

97 kq çəkidə yarışan Nurməhəmməd Hacıyevin ilk rəqibi polşalı Radoslav Baran idi. Rəqibini 8:0 hesabı ilə üstələyən idmançımız 1/4 finalda Elizbar Odikadze ilə qarşılaşıb. Gürcüstan təmsilçisi də Nurməhəmmədlə bacarmayıb. Hacıyev bu dəfə 7:3 hesablı qalibiyyətlə yarımfinala yüksəlib. Onun final yolunda rəqibi Murazi Mçedlidze (Ukrayna) olub. Rəqibinə 7:0 hesabı ilə qalib gələn Hacıyev qızıl medal uğrunda mübarizədə rusiyalı Abdulraşid Sadullayevlə qarşılaşmaya zədə ucbatından çıxmadığı üçün gümüş medalla kifayətlənməli olub.

## Daha iki qızıl və iki bürünc medal şansı

İyunun 27-də 4 qadın güləşçimiz mübarizəyə başlayıb.

50 kq çəkidə mübarizə aparan komandamızın lideri Mariya Stadnik yarışa 1/4 final mərhələsindən başlayıb. Polşalı Anna Lukasiakla güləşən təmsilçimiz 10:0 hesabı ilə qələbə qazanaraq yarımfinala yüksəlib. Finala gedən yolda Evin Dəmirhana (Türkiyə) qalib gələn Mariya həlledici mərhələdə bu gün ukraynalı Oksana Livaçla qarşılaşacaq.

57 kq çəkidəki təmsilçimiz Alyona Kolesnik oyunlara 1/8 finaldan başlayıb. Macarıstanlı Ramona Qalambos ilə üzüzə gələn idmançımız 10:0 hesabı ilə qalib gəlsə də, 1/4 finalda bolqarıstanlı Mimi Xristova ilə bacarmayıb (0:6). Amma rəqibi finala yüksəldiyi üçün Alyona üçün bürünc medal şansı yaranıb. Bunun üçün isə ilk olaraq təsəlliverici görüşdə bu gün italiyalı Franseska İndelikatoya qalib gəlmək lazımdır.

62 kq çəki dərəcəsində yarışan Elmira Qəmbərova da turnirə 1/8 finaldan başlayıb. Almaniyalı Luzi Manke ilə güləşən idmançımız 4:0 hesabı ilə qalib gələrək 1/4 finala adlayıb. Bu mərhələdə polşalı Katarzina Madrovska üzərində 9:0 hesabı ilə qələbə qazanan Elmira yarımfinala vəsiqə qazanıb. Finala gedən yolda təmsilçimizin son maneəsi Krişta İnçze (Rumıniya) olub. Bu mərhələni də uğurla adlayan güləşçimiz finalda bu gün ukraynalı Yuliya Tkaçla üz-üzə gələcək.

76 kq çəki dərəcəsində güləşən Səbirə Əliyeva isə 1/8 finalda Aykaterinierini Pitsiava (Yunanıstan) ilə qarşılaşıb və 9:0 hesabı ilə qələbə qazanaraq 1/4 finala yüksəlib. Bu mərhələdə də Georgina Neltorpa (Böyük Britaniya) 8:2 hesabı ilə qalib gələn Səbirə yarımfinalda almaniyalı Frensi Rideltlə qarşılaşıb. Görüşü məğlub başa vuran idmançımız bu gün bürünc medal uğrunda yarışacaq.

## İki boksçumuz yarımfinalda

Srağagün II Avropa Oyunlarında boks yarışlarında 1/4 final görüşləri keçirilib. 60 kq çəki dərəcəsində mübarizə aparan Cavid Çələbiyev gürcüstanlı rəqibinə uduzaraq mübarizəni dayandırıb.

69 kq çəki dərəcəsində yarışan təmsilçimiz Lorenzo Sotomayor isə kosovalı Patriot Behrami ilə qarşılaşıb. İdmançımız 4:1 hesablı qələbə ilə yarımfinala yüksəlib. Final yolunda Sotomayorun rəqibi Böyük Britaniya təmsilçisi Pet Makkormak olacaq.

81 kq çəkidə digər boksçumuz Alfonso Dominqez isə belçikalı Ziyad El-Moxoromla döyüşüb. Mübarizəni qələbə ilə başa vuran idmançımızın yarımfinalda rəqibi italiyalı Simone Fioridir.

Xatırladaq ki, 7 yarış günündən sonra Azərbaycan yığması "Minsk-2019"da 16 medal qazanıb. Bunlardan 2-nin əyarı qızıl, 5-i gümüş, 9-u bürüncdür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Kinoloji yarışlar başa çatıb











Dövlət Sərhəd Xidmətinin (DSX) Xidməti Heyvanlar Təlimatçılarının Hazırlığı Mərkəzində DSX-nin hərbi hissələri arasında xidməti it təlimatçıları və bələdçilərinin kinoloji yarışları keçirilib.



Yeddi gün davam edən yarışlara Xidmətin Xidməti Heyvanlar Təlimatçılarının Hazırlığı Mərkəzinin, Sərhəd Qoşunlarının hərbi hissələrinin, Sərhəd Nəzarətinin sərhəd nəzarəti məntəqələrinin kinoloq-mütəxəssisləri cəlb olunub.

Kinoloji yarışlar üç müxtəlif istiqamətdə - narkotik vasitələrin, partlayıcı maddələrin axtarışı və iz axtarışları üzrə keçirilib. Yarışların keçirilməsində məqsəd xidməti it təlimatçıları və bələdçilərinin peşəkar hazırlığını inkişaf etdirmək, dövlət sərhədinin mühafizəsində xidməti itlərlə sərhəd pozucularının axtarışı və yaxalanması, sərhəd nəzarəti məntəqələrində narkotik vasitələrin, partlayıcı maddələrin axtarışı, döyüş bölgələrində mina axtarışı imkanlarının genişləndirilməsi, həmçinin ən yaxşı praktiki vərdişlərə malik kinoloq-mütəxəssislərin və yüksək iş qabiliyyəti olan xidməti itlərin müəyyənləşdirilməsi olub.

Yarışlarda xüsusi təlim keçmiş xidməti itlərlə nəqliyyat vasitələrində, əl çantalarında, otaqlarda narkotik vasitələrin axtarışı, sərhəd pozucusunun izlərlə təqib olunaraq yaxalanması, həmçinin ərazidə basdırılmış mina və digər partlayıcı maddələrin axtarışı və tapılması üzrə tapşırıqlar yerinə yetirilib.

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr edilmiş tədbirlər çərçivəsində keçirilən kinoloji yarışların qaliblərinə kubok, diplom, "Xidmətdə fərqlənmiş sərhədçi" döş nişanı və pul mükafatları təqdim olunub.

Yarışın yekununa həsr olunmuş tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra sərhədçi kinoloq-mütəxəssislər tərəfindən xidməti itlərlə nümunəvi çıxışlar yerinə yetirilib.

***"Azərbaycan"***

təmiz şəhər

# Beynəlxalq Valyuta Fondunun və Liberiyanın Peynesvil şəhərinin nümayəndə heyətləri "Təmiz Şəhər" ASC-də olublar





Beynəlxalq Valyuta Fondunun Azərbaycandakı missiyasının rəhbəri Natalya Tamirisanın və Liberiyanın Peynesvil şəhər meri Pem Belçer-Teylorun rəhbərlik etdiyi nümayəndə heyətləri Azərbaycanın tullantıların idarə olunması sahəsində təcrübəsi ilə tanış olmaq üçün "Təmiz Şəhər" ASC-də olublar.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov qonaqlara Azərbaycanda tullantıların idarə olunması sahəsində görülən işlər haqqında məlumat verib. Bildirilib ki, müasir ekoloji tələblərə cavab verən Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu 4-cü nəsil texnologiyalarla inşa edilib. Müəssisə il ərzində 500 min ton bərk məişət, 10 min ton tibbi tullantını utilizə, 231 milyon kilovat-saat elektrik enerjisi hasil etmək gücünə malikdir. İl ərzində zavodda əldə edilən enerji ilə 300 min nəfər əhalini elektrik enerjisi ilə tam təmin etmək mümkündür.

Qonaqlar, həmçinin Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonu ilə tanış olublar. Məlumat verilib ki, bütün sanitar normalara uyğun olan poliqonun yenidən qurulması işləri İqtisadiyyat Nazirliyi və Dünya Bankı tərəfindən birgə reallaşdırılan "Bərk məişət tullantılarının vahid idarəçiliyi layihəsi" çərçivəsində həyata keçirilib. Burada tullantılardan ayrılan çirkab sular filtrlər vasitəsilə süzülərək texniki suya çevrilir və ərazidə əkilən 11 mindən çox ağacın suvarılmasında istifadə olunur. Tullantılardan yığılan qazlar isə xüsusi generatorlar vasitəsilə elektrik enerjisinə çevrilir və poliqonun daxili ehtiyacları üçün istifadə olunur.

Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu ilə tanış olan qonaqlara məlumat verilib ki, alman texnologiyaları ilə inşa edilən müəssisə il ərzində 200 min ton tullantı çeşidləmək gücünə malikdir. Tullantılar plastik, PET, kağız, sellofan, şüşə və s. materiallara çeşidlənməklə təkrar emal müəssisələrinə göndərilir.

Nümayəndə heyətləri ölkəmizdə "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi məqsədilə yaradılmış Balaxanı Sənaye Parkında da olublar. Qonaqlara məlumat verilib ki, 2017-ci ildə istifadəyə verilmiş Balaxanı Sənaye Parkında qeydiyyata alınmış və layihələrinin investisiya dəyəri 41,5 milyon manat təşkil edən 17 rezidentdən 8-i artıq fəaliyyət göstərir. Sahibkarların marağı nəzərə alınaraq Balaxanı Sənaye Parkının ərazisi 8,3 hektaradək genişləndirilib. Hazırda müəssisələrdə 400-ə yaxın işçi çalışır və yeni layihələrin reallaşdırılması hesabına işçilərin sayının 680-ə çatdırılması nəzərdə tutulur.

Qonaqlar "Təmiz Şəhər" ASC-nin fəaliyyətini, zavodların işini yüksək qiymətləndiriblər. Peynesvil şəhər merinin rəhbərlik etdiyi nümayəndə heyəti tullantıların idarəolunması sahəsində Azərbaycan təcrübəsinin Liberiyada tətbiqinin faydalı olacağını vurğulayıb.

***"Azərbaycan"***

# Mərkəzi Seçki Komissiyasının sədri Slovakiyaya səfər edib

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov iyunun 27-28-də keçiriləcək Seçki İdarəetmə Orqanlarının 16-cı Avropa Konfransında iştirak etmək məqsədilə Slovakiya Respublikasına səfər edib.

MSK-dan AZƏRTAC-a bildiriblər ki, "Seçki mübahisələrinin həlli" mövzusunda keçiriləcək, dünyanın müxtəlif ölkələrindən çoxsaylı ali seçki qurumlarının və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, habelə beynəlxalq seçki ekspertlərinin də qatılacağı tədbir seçkilərə dair bir sıra məsələlərin və ölkələrin əldə etdiyi yaxşı təcrübələrin müzakirəsinə həsr olunub.

Avropa Şurası Venesiya Komissiyasının rəhbəri Tomas Markertin dəvətinə əsasən həyata keçirilən səfər çərçivəsində sədr M.Pənahovun seçki idarəetmə qurumlarının və beynəlxalq təşkilatların rəhbərləri, eləcə də digər rəsmi şəxslərlə görüşləri, qurumlararası əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı faydalı əməkdaşlıq və maraq doğuran məsələlər ətrafında müzakirələrin aparılması nəzərdə tutulur.

Səfər zamanı MSK sədrini Komissiya Katibliyinin müdiri Rövzət Qasımov müşayiət edir.

# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti olmaqla Əfqanıstandakı missiyada iştirak edir.

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı yerli orqanları və tabeliyində olan Sosial xidmət Müəssisələri tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması ilə əlaqədar "Azərbaycan" qəzetinin 2019-cu il 26 iyun tarixli sayında dərc edilmiş açıq tender elanının **"İştirak haqqı: LOT 1 üzrə 400,00 (dörd yüz) manat", LOT 2 üzrə 300 (üç yüz) manat"** kimi oxunsun.

***Tender komissiyası***

*Təkrar*

"Azərişıq" ASC müxtəlif mal-materialların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:
LOT-1 Müxtəlif sərfiyyat mallarının satın alınması - 400 manat
LOT-2 Müxtəlif elektrik mallarının satın alınması - 400 manat
LOT-3 Müxtəlif ÖİN aksesuarlarının satın alınması - 400 manat
LOT-4 Müxtəlif sayğac və sayğac qutularının satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab №: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 iyul 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 25 iyul 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 iyul 2019-cu il saat 16:00-da Ələsgər Qayıbov küçəsi, 8 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender komissiyası

# “Azərsu” ASC daxili vəsaiti hesabına generator və köməkçi mexaniki avadanlıqların əsaslı təmiri işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**
**LOT-1:** Generatorların əsaslı təmiri işlərinin satın alınması
**LOT-2:** Köməkçi mexaniki avadanlıqların əsaslı təmiri işlərinin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288) ala bilərlər.

**Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.**

| | |
|---|---|
| **Təşkilat:** | **“Azərsu” ASC** |
| **VÖEN:** | **9900001751** |
| **Bank:** | **“Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı** |
| **Kod:** | **200112** |
| **VÖEN:** | **9900003611** |
| **M/h:** | **AZ37NABZ 01350100000000001944** |
| **SWIFT BIK:** | **AIIBAZ2X** |
| **H/h:** | **AZ65AIIB 33070019441100216111** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 avqust 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **15 avqust 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 avqust 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**- Dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

İştirak haqqı: **2000 manat**
**VÖEN: 1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08 avqust 2019-cu il saat 18:00-a** qədər AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **09 avqust 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## The Republic of Azerbaijan Agricultural Competitiveness Improvement Project

**Loan No: 8286-Az**
**Contract Title:**
**Reference No. (as per Procurement Plan): A1/G-9**

1. The Ministry of Agriculture of Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds toward payments under the contract for support to inspection and state control by provision of instruments.

2. Agency for Agro Credit and Development under the Ministry of Agriculture/Agricultural Competitiveness Improvement Project now invites sealed bids from eligible bidders for purchasing support to inspection and state control by provision of instruments.

Delivery to Final destination Place:Azerbaijan Food Safety Institute, 72 C, Suleyman Sani Akhundov str., Baku city, Azerbaijan

Responsible person for receipt of goods: Elkhan Akhundov, Sector on the work with regional offices

Delivery period is 2-3 months following the date of contract signature.

Post-qualification requirements:

(a) If Bidder is Manufacturer:

(i) Financial Capability

The Bidder shall furnish documentary evidence that it is in a sound financial status:

1. The Bidder shall furnish documentary evidence that it meets the following financial requirement(s): The average annual turnover of the bidder for the last three years (2016 - 2017 - 2018) must exceed US$ 0.50 mln or equivalent; The averages of cash and cash equivalents at the beginning and end of year are positive in the last three years (2016 - 2017 - 2018); Zero (0) tax and social security liabilities.

2. The listed requirements would apply to partners of the Joint Venture cumulatively. In addition, all members of the Joint Venture should have experience in required technical area and each member of the Joint Venture should fulfill at least 25% of required turnover.

(ii) Experience and Technical Capacity

During the past three (3) years, the Bidder must have completed at least two (2) successful contracts involving the supply of similar goods - support to inspection and state control by provision of instruments.

Note: For Joint Ventures, listed requirements would apply to partners of the Joint Venture cumulatively. In addition, all members of the Joint Venture should have experience in required technical area and each member of the Joint Venture should fulfill at least 25 % of required turnover.

(iii) Documentary Evidence

The Bidder shall furnish documentary evidence to demonstrate that the Goods it offers meet the following usage requirement:

- Electrical equipment must meet the requirements of existing electric supply system of Azerbaijan - n/a
- All goods must fit for purpose - i.e. conform to required technical specifications specified in Section VII. Schedule of Requirements, Technical Specifications.

(b) If Bidder is not manufacturer:

If a Bidder is not a manufacturer, but is offering the Goods on behalf of the Manufacturer under Manufacturer's Authorization Form (Section IV, Bidding Forms), then the Manufacturer shall demonstrate the above qualifications (i), (ii), (iii) with the reservation set forth below, and the Bidder shall demonstrate that it has successfully completed at least 1 contract of similar goods in the past 3 years.

Reservation: in case of several manufacturers, each manufacturer should have experience in required technical area and should have annual sales of similar products at least twice exceeding the total price of his offered products for this bid. The requirement for annual turnover would apply to different manufacturers cumulatively. Each manufacturer should have experience in required technical are and should have the annual turnover at least twice exceeding the total price of his offered products for this bid. The requirement is not applicable to manufacturers accounting for less than 3 % of the total bid price.

3. Bidding will be conducted through the National Competitive Bidding procedures as specified in the World Bank's Guidelines: Procurement of Goods, Works and Non-Consulting Services under IBRD Loans and IDA Credits &Grants by World Bank Borrowers January 2011 Revised July 2014 (“Procurement Guidelines”) and is open to all eligible bidders as defined in the Procurement Guidelines. In addition, please refer to paragraphs 1.6 and 1.7 setting forth the World Bank's policy on conflict of interest.

4. Interested eligible bidders may obtain further information from Agency for AgroCredit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project,

Mr. Anar Azimov, a.azimov@akia.gov.az; anarazim@gmail.com; n.isgandarova@akia.gov.a, nargiz.acip@gmail.com; and inspect the bidding documents during office hours from 09.00 to 18.00 at the address given below.

5. A complete set of bidding documents in English may be purchased by interested eligible bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 200 AZN or equivalent. The method of payment will be bank transfer or direct deposit to the specified account number. The document will be sent by surface mail or courier for local delivery.

Beneficiary: Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project

Beneficiary's Tax ID: 1700428481

Beneficiary's bank: International Bank of Azerbaijan Open Joint Stock Company, Premier Customer Services Branch

S.W.I.F.T: IBAZAZ2X

Bank Code: 805250

Bank's Tax Code: 9900001881

Corr. acc: AZ03NABZ01350100000000002944 with Central Bank of Azerbaijan (for AZN)

Corr. acc: 36083186 with Citibank N.A, New York, NY; SWIFT code: CITIUS33XX (for USD)

Beneficiary's Account in AZN: AZ03IBAZ38090069449330335120

Beneficiary's Account in USD: AZ73IBAZ38190078409330335120

6. Bids must be delivered to the address below on or before **15:00 local time, July 29, 2019.** Electronic bidding will not be permitted. Late bids will be rejected. Bids will be publicly opened in the presence of the bidders' designated representatives and anyone who choose to attend at the address below on **15:15 local time, July 29, 2019.**

7. All bids must be accompanied by a Bid Security of: **4500USD**

8. The address(es) referred to above is(are):

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**For submission of bids: 3rd floor**
**For opening of bids: 3rd floor, conference room**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**25E, Nobel Avenue, Baku White City Business Center AZ1025, Baku, Azerbaijan**
**Tel: (+99412) 5250117/3015**
**Email: a.azimov@akia.gov.az; anarazim@gmail.com; n.isgandarova@akia.gov.az; nargiz.acip@gmail.com;**
**Web site:** www.akia.gov.az

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 11 iyun 2019-cu il tarixdə müxtəlif işlərin satın alınmasına dair 4 LOT üzrə keçirilmiş açıq tenderdə

LOT-1. “Bakı Metropoliteni” QSC-nin struktur bölmələrində havalandırma, santexnika, istilik sistemi, işıqlandırma və s. işlərin satın alınması üzrə “SMT İnşaat” MMC ƏDV daxil 223 074,63 (iki yüz iyirmi üç min yetmiş dörd manat 63 qəpik) manat məbləği ilə,

LOT-2. “Bakı Metropoliteni” QSC-nin “N.Nərimanov” elektrik deposu ərazisində tikanlı məftildən, metal profildən xüsusi tipli mühafizə hasarının və 17, 24, 40 saylı şaxtaların üzərində metal konstruksiyadan ventilyasiya köşklərinin hazırlanıb quraşdırılması işlərinin satın alınması üzrə “Bakı-Mexaniki-Təmir” ATSC ƏDV daxil 272 527,79 (iki yüz yetmiş iki min beş yüz iyirmi yeddi manat 79 qəpik) manat məbləği ilə,

LOT 3. “Bakı Metropoliteni” QSC-nin “B03” stansiyasında 35 kv-luq paylayıcı qurğu binasında fasadın şüşə və kompozit material ilə üzlənməsi işlərinin satın alınması üzrə “STA İnşaat” MMC ƏDV daxil 265 712,48 (iki yüz altmış beş min yeddi yüz on iki manat 48 qəpik) manat məbləği ilə,

LOT-4. “Bakı Metropoliteni” QSC-nin müxtəlif obyektlərində asfalt beton təmir işlərinin satın alınması üzrə “Təməl-M” firması 198 576.30 (bir yüz doxsan səkkiz min beş yüz yetmiş altı manat 30 qəpik) manat məbləği ilə qalib elan olunmuşlar.

Qalib gəlmiş təşkilatlar ilə 25.06.2019-cu il tarixdə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binasında olan od söndürən balonların təkrar doldurulması işlərinin satın alınması üzrə 20 iyun 2019-cu il tarixdə elan olunmuş kotirovka sorğusunun davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 16.04.2019-cu il tarixli sayında elan edilmiş Kompüter avadanlıqlarının satın alınması prosedurunun qalibi “BESTCOMP GROUP” MMC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “BESTCOMP GROUP” MMC arasında 544 611,30 (beş yüz qırx dörd min altı yüz on bir manat 30 qəpik) manat dəyərində 20 iyun 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ABŞ Senatı Meksika ilə sərhədin mühafizəsinə pul ayırmadı

ABŞ Senatı Meksika ilə sərhəddə problemlərin həlli üçün 4,5 milyard dollar ayrılmasını nəzərdə tutan qanun layihəsini indiki şəkildə qəbul etməyə razılıq verməmiş və sənədə dəyişikliklər etmişdir. Bu barədə “Alman dalğası” radiostansiyası xəbər verir. Məlumata görə, sənədin yeni versiyası bundan əvvəl qanun layihəsini qəbul etmiş Nümayəndələr Palatasına qaytarılacaq.

Sərhədin mühafizəsi haqqında qanun 4,5 milyard dollar məbləğində pul tələb edir. Qanunda həm də qeyri-leqal mühacirlərin saxlanması mərkəzləri üçün sərt standartların tətbiq olunması öz əksini tapmışdır. Amerikalı hüquq müdafiəçiləri həmin mərkəzlərdə şəraitlə bağlı dəfələrlə narahatlığını ifadə etmişlər.

## Qırğızıstanın eks-prezidenti toxunulmazlıqdan məhrum edildi

Qırğızıstan parlamenti eks-prezident Almazbek Atambayevi toxunulmazlıqdan məhrum etmişdir. Bu barədə TASS agentliyi xəbər verir. Parlamentin deputatları səs çoxluğu ilə eks-prezidentin toxunulmazlığının ləğv olunması barədə qərar qəbul etmişlər. Qanunvericilik orqanından verilən məlumata görə, Atambayev cinayət məsuliyyətinə cəlb oluna bilər.

Xatırladaq ki, Almazbek Atambayev Qırğızıstan Prezidenti vəzifəsini tərk edərkən incitdiyi adamlardan üzr istəmişdi. O, ümidvar olduğunu bildirmişdi ki, növbəti prezident daha diplomatik olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsindən Valeh Ələsgərov, Kamran Nəbizadə, Mirkazım Kazımov, Rövnəq Abdullayev, Mirzəcan Xəlilov, Mixail Zabelin, əməkdaşlar Şamil Hüseynov və Sürəyya Abdullayeva Milli Məclisin deputatı İqbal Məmmədova atası

**NƏRİMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, Hüseynbala Mirələmov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə, Zahid Abbasov, İsa Hüseynov və Məhəmməd Gülməmmədov Milli Məclisin deputatı İqbal Məmmədova atası

**NƏRİMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Azərbaycanın görkəmli alimi, Bakı Dövlət Universitetinin professoru

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı İqbal Məmmədova atası

**NƏRİMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu mətbuat tədqiqatçısı, Bakı Dövlət Universitetinin professoru

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Gəncə Dövlət Universitetinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin professoru

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin professoru

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin rektorluğu və kollektivi Bakı Dövlət Universitetinin professoru, respublikanın görkəmli alimi, mətbuat tədqiqatçısı

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, professor

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası - Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin professoru

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, professor

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Təbabəti Muzeyinin direktoru Sadatxan Əliyev və muzeyin kollektivi Səhiyyə Nazirliyinin Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri Azad Vəliyevə atası

**NƏRİMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universiteti Tarix fakültəsinin və Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının kollektivi kafedranın professoru

**LƏTİFƏ LAZIM QIZI HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi görkəmli elm xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin “14 N-li Xüsusi Təyinatlı Yol İstismarı” MMC-nin direktoru Araz Bəndəliyevə anası

**GÜLŞƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, görkəmli alim, mətbuat tədqiqatçısı, professor

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Biləsuvardan Mahir Quliyev Milli Məclisin deputatı İqbal Məmmədova atası

**NƏRİMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9053
Sifariş 2095
Qiyməti 40 qəpik